# 26 İyun Silahlı Qüvvələr Günüdür

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

26 İYUN 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 138 (6171) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edir və Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Səsvermənin nəticələri xalqın əsl lideri kimi Sizin şəxsinizə olan böyük inam və etimadın aşkar təzahürü, qardaş Türkiyənin hərtərəfli inkişafı və çiçəklənməsi yolunda genişmiqyaslı fəaliyyətinizə və xidmətlərinizə verilən yüksək qiymətdir.

Azərbaycan ilə Türkiyəni dərin tarixi kökləri, ortaq milli-mənəvi dəyərləri ilə bir-birinə sıx bağlı olan, xalqlarımızın iradəsinə uyğun olaraq sarsılmaz dostluq və qardaşlıq münasibətləri birləşdirir. Bu möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz bu gün müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə yüksəlmişdir.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sayəsində birgə həyata keçirdiyimiz layihələr regionun inkişafında, Avropa ilə Asiya arasında mühüm enerji, kommunikasiya dəhlizinin yaradılmasında böyük rol oynayır. Birgə gerçəkləşdirdiyimiz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, bu yaxınlarda açılışını etdiyimiz TANAP layihəsi uğurlu əməkdaşlığımızın parlaq nümunələridir.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərimizin gerçəkləşməsində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Əziz Qardaşım, bir daha Sizə ən səmimi təbriklərimi yetirir, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyə xalqının yüksəlişi naminə əzmkar və fədakar işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 24 iyun 2018-ci il.**

## Cibuti Respublikasının Prezidenti Zati-aliləri cənab İsmail Ömər Gellehə

Hörmətli cənab Prezident,

Cibuti Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Cibuti arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Cibuti xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 iyun 2018-ci il.**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı seçkilərdə əldə etdiyi inamlı qələbə münasibətilə təbrik edib. Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və inkişafı naminə yeni uğurlar arzulayıb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanı Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul edilib.

# Prezident İlham Əliyev Rusiya Federal Məclisi Dövlət Dumasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Bu yaxınlarda Rusiya Federasiyasında Prezident Vladimir Putinlə görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev iki ölkənin dövlət başçıları arasında görüşlərin mütəmadi olaraq keçirildiyini qeyd etdi və bu təmasların əlaqələrimizin bütün istiqamətlərdə irəliyə aparılması baxımından önəmini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ikitərəfli münasibətlərimiz geniş sahələri əhatə edir, möhkəm siyasi əlaqələr mövcuddur, iqtisadi, ticarət, nəqliyyat, energetika, humanitar və digər sahələrdə yaxşı dinamika müşahidə olunur. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində parlamentlərarası əməkdaşlıq da böyük önəm daşıyır. Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edir və hər zaman beynəlxalq səviyyədə bir-birini qarşılıqlı surətdə dəstəkləyir. Bütün bunlar ölkələrimiz arasında etimada əsaslanan əlaqələrin yaxşı göstəricisidir. Prezident İlham Əliyev bir daha Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bildirdi ki, bu seçkilərdə insanlar Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə, o cümlədən xarici siyasətə dəstək verdiklərini nümayiş etdiriblər. Vyaçeslav Volodin vurğuladı ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlər strateji tərəfdaşlıq əlaqələrinə əsaslanır və çox yüksək səviyyədədir. O qeyd etdi ki, dövlət başçılarının həyata keçirdiyi siyasət bu işdə xüsusi rol oynayır. Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunan Vyaçeslav Volodin bildirdi ki, bu sahədə də əlaqələrin uğurla inkişaf etməsi xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Vyaçeslav Volodin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndiyini məmnunluqla vurğuladı və bildirdi ki, ticarət dövriyyəsinin 30 faiz artımı bunun çox yaxşı göstəricisidir. Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri, eyni zamanda, turizm sahəsində əməkdaşlığın genişləndiyini qeyd edərək ötən il Rusiyadan Azərbaycana 850 mindən artıq turistin gəldiyini bildirdi və bu göstəricinin 18 faiz artdığını qeyd etdi. O bildirdi ki, bu rəqəm Rusiya turistləri üçün ənənəvi olan bir çox ölkələrin göstəricisini artıq geridə qoyub.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.



Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 8, maddə 723; 2009, N 6, maddə 424, N 7, maddə 589; 2012, N 2, maddə 126; 2014, N 2, maddə 112, N 6, maddə 644; 2016, N 8, maddə 1384, N 9, maddə 1518; 2018, N 1, maddə 79) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın sədri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri.”.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Rusiya Federasiyası tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 iyun 2018-ci il.**

# Prezident İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının dövlət katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu yaxınlarda Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Moskvada görüşdüyünü məmnunluqla xatırladı və söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldığını dedi. Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu və tərəfdaşlıq əlaqələrinə söykəndiyini vurğulayaraq, əməkdaşlığımızın siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi və bunu xalqın dövlət başçısına verdiyi dəstəyin nümayişi kimi dəyərləndirdi. O, iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevə əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmək üçün ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etdi və bunu ölkələrimiz arasında qardaşlıq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirdi. Ölkələrimizin hər zaman bir-birini dəstəklədiyini deyən dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi səbəbindən Pakistanın Ermənistanla diplomatik əlaqələr qurmamasını yüksək qiymətləndirdi və qeyd etdi ki, bu, xalqlarımız arasında qardaşlığı nümayiş etdirir və Azərbaycan xalqı bunu yüksək dəyərləndirir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Pakistan rəhbərləri ilə görüşlərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz arasında sıx siyasi əlaqələr mövcuddur və eyni zamanda, müdafiə sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Pakistanla hərbi əməkdaşlığı daha da genişləndirmək və Pakistandan daha çox hərbi texnika almaqda maraqlıdır. Ölkələrimizin birgə hərbi təlimləri də bu məqsədə xidmət edir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat Pakistan hökumətinin, xalqının və Silahlı Qüvvələrinin ən xoş arzularını Prezident İlham Əliyevə və xalqımıza çatdırdı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəyindən məmnunluq hissi keçirdiyini deyən Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat tədbirin böyük əhəmiyyət daşıdığını vurğuladı və bu münasibətlə təbriklərini çatdırdı. Xalqlarımız arasında sıx əlaqələrin mövcud olduğunu deyən Zübair Mahmud Hayat bu əlaqələrin tarixi və mədəni köklərə əsaslandığını vurğuladı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

### 1-ci dərəcəli "Rəşadət" ordeni ilə

Həsənov Zakir Əsgər oğlu - general-polkovnik
Sadıkov Nəcməddin Hüseyn oğlu - general-polkovnik
Mustafayev Kərəm Nəriman oğlu - general-leytenant

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Vəliyev Kərim Tofiq oğlu - general-leytenant
Eyyubov Teymur Tərlan oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Nəcəfov Hilal Əlimurad oğlu - general-mayor
Kərimov Anar Təvəkkül oğlu - polkovnik
Qurbanov Abdulla Novruz oğlu - polkovnik

### "Vətən uğrunda" medalı ilə

Tahirov Ramiz Firudin oğlu - general-leytenant
Ağayev Zakir Samiddin oğlu - general-mayor
Salahov Füzuli Zəbiş oğlu - general-mayor
Abdullayev Rafael Kamil oğlu - polkovnik
Hümmətov Zaur Cəlal oğlu - 1-ci dərəcəli kapitan
Məhərrəmov Etibar İsmayıl oğlu - polkovnik
Məmmədov Nizami Ağoğlan oğlu - polkovnik
Pirverdiyev Akif Səməndər oğlu - polkovnik
Rüstəmov Zaur Zeynalabdul oğlu - polkovnik
Dadaşov Haqverdi Xudaverdi oğlu - polkovnik-leytenant
Əliyev Hüseyn İsbəndiyar oğlu - tibb xidməti polkovnik-leytenantı
Həmidov Tural Fəxrəddin oğlu - polkovnik-leytenant
Quliyev Ümüdvar Əzizalı oğlu - polkovnik-leytenant
Məmmədov Cəlil Allahverən oğlu - polkovnik-leytenant
Tatarov Adil Əli oğlu - əsgər (ölümündən sonra)

### "İgidliyə görə" medalı ilə

Osmanov Nizam Ramazan oğlu - general-leytenant
Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Cəbrayılov Xəqani Sərdar oğlu - general-mayor
Hüseynov Zahid İbrahim oğlu - general-mayor
Bayramov Samir Azad oğlu - polkovnik
Həsənov Məhəmməd Kərim oğlu - polkovnik
Ağayev İldırım Kərimağa oğlu - polkovnik-leytenant
Cavadov Rüstəm Gürşad oğlu - polkovnik-leytenant
Həmzəyev Muxtar İsmayıl oğlu - polkovnik-leytenant
Məmmədov Teymur Davud oğlu - polkovnik-leytenant
Rüstəmov Fariz Məhərrəm oğlu - polkovnik-leytenant
Rzayev Gülməmməd Tofiq oğlu - polkovnik-leytenant
Seyidov Cəfər Əziz oğlu - polkovnik-leytenant
Səfərov Elxan Hüseyn oğlu - polkovnik-leytenant
Şıxlinski Vüqar Zakir oğlu - polkovnik-leytenant
Cəfərov Aqil Özüxan oğlu - mayor
Mirzəyev Hikmət İslam oğlu - mayor
Süleymanov Faiq Rafiq oğlu - mayor
Həsənov Hümmət Fərrux oğlu - kapitan
İsaqov Mircəlal Eldar oğlu - kapitan
Mehdiyev Ələsgər Əli oğlu - kapitan
Məmmədov Rəşad Arif oğlu - kapitan
Şirinov Elnur Ramiz oğlu - kapitan
Tağıyev Vüsal Musa oğlu - kapitan
Vəliyev Nizami Dünyamin oğlu - kapitan
Gözəlov Əlqəm Əhəd oğlu - baş leytenant
Şıxnəbiyev Renat Gülməmməd oğlu - baş leytenant
Zeynalov Təbriz Eyvaz oğlu - baş leytenant

### "Hərbi xidmətlərə görə" medalı ilə

Əkbərov Rövşən Telman oğlu - general-leytenant
Babayev Rasim Rza oğlu - polkovnik
Bağırov Natiq Hacıverdi oğlu - 1-ci dərəcəli kapitan
Cəbrayılov Sərvər Sərdar oğlu - polkovnik
Əkbərov Nizami Əvəz oğlu - polkovnik
Əliyev İmran Kamran oğlu - polkovnik
Məmmədov Zahid Həsən oğlu - polkovnik
Şıxiyev Həbib Vələddin oğlu - polkovnik
Abdullayev Eldəniz İkram oğlu - polkovnik-leytenant
Baxışov Səxavət Mamed oğlu - polkovnik-leytenant
Daşdəmirov Mehman Qəhrəman oğlu - polkovnik-leytenant
Əmrah Anar Eldar oğlu - tibb xidməti polkovnik-leytenantı
Hüseynov Çingiz Oruc oğlu - polkovnik-leytenant
Xaniyev Vüsət Barat oğlu - polkovnik-leytenant
İbrahimov Rəşad Miraslan oğlu - polkovnik-leytenant
İsmayılov Füzuli Qəzənfər oğlu - polkovnik-leytenant
Paşayev Alıbəy Şəmil oğlu - polkovnik-leytenant
Səmidli Babək Mətləb oğlu - polkovnik-leytenant
Süleymanov Elşad Nadir oğlu - polkovnik-leytenant
Tinayev Rəşid Cuma oğlu - polkovnik-leytenant
Allahverdi İmran Əli oğlu - mayor
Babayev Aqşin Əli oğlu - mayor
Xəlilov Ramil Vəlixan oğlu - mayor
İsgəndərov İbrahim Əsəbəli oğlu - tibb xidməti mayoru
Nərimanov Cavad Əliyar oğlu - mayor
Osmanov Vasif Ramizoviç - mayor
Dadaşov Tural Alxan oğlu - baş leytenant
Balayev Coşqun Vaqif oğlu - gizir
Rəşidov İlham Tahir oğlu - gizir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 25 iyun 2018-ci il.**

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

### "general-leytenant" hərbi rütbəsi

general-mayor Ayaz Binyət oğlu Həsənova

### "general-mayor" hərbi rütbəsi

polkovnik Fazil Köçəri oğlu Ağalarova
polkovnik Məmməd Şəmil oğlu Eminova
polkovnik Elçin Xəzənağa oğlu Xəlilova
polkovnik Rauf Arif oğlu İsmayılova
polkovnik Namiq Qasım oğlu Poladova
polkovnik Mübariz Balağa oğlu Rzayevə
polkovnik Niyaməddin Məhərrəm oğlu Tağıyevə.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 25 iyun 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə Burundi xalqı və hökuməti adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan çox məmnunam.

Fürsətdən istifadə edərək, ümidvar olduğumu bildirirəm ki, Burundi Respublikası və Azərbaycan Respublikası arasında səmimi münasibətlər xalqlarımızın qarşılıqlı mənafeləri naminə daha da möhkəmlənəcək.

Bir daha Sizə və Azərbaycan xalqına sülh, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Zati-aliləri, cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Pyer Nkurunziza**
**Burundi Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizinlə bu il mayın 15-16-da Bakıda baş tutan görüşümüzü böyük məmnunluq hissi ilə xatırlayıram. Bizim kənd təsərrüfatı sahəsində çalışan sahibkarlardan ibarət nümayəndə heyətimizin ölkənizə səfəri çox səmərəli keçdi. Əməkdaşlığımızı bundan sonra da davam etdirməyə və dərinləşdirməyə ümid edirik.

Sizə olan davamlı dəstəyimi və ən xoş arzularımı bildirirəm.

*Dərin hörmət və səmimiyyətlə,*

**Rene Van der Linden**
**Niderland Krallığı Senatının sabiq sədri,**
**Avropa Şurası Parlament Assambleyasının fəxri sədri,**
**Niderland-Azərbaycan Dostluq Qrupunun sədri**

## "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1352 nömrəli Fərmanının 1.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

**1.** "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 25 iyun 2018-ci il.**

*"2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası" qəzetin 6-cı səhifəsində dərc olunur.*

# Bakıda Gürcüstanın milli bayramı qeyd edilib





**Gürcüstanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə iyunun 25-də rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə Azərbaycanın və Gürcüstanın dövlət himnləri səsləndirilib.

Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidze qəbulda çıxış edərək ölkəsinin müstəqilliyinin tarixindən danışıb. Bildirib ki, həm Azərbaycan, həm də Gürcüstan bu il müstəqilliyinin 100 iliyini qeyd edir.

Səfir deyib ki, Gürcüstan dövlət müstəqilliyini möhkəmləndirir, iqtisadiyyatını inkişaf etdirir, azad və demokratik cəmiyyət qurur. Bu proseslərdə Gürcüstanın Azərbaycanla əməkdaşlığının əhəmiyyətinə toxunan diplomat xalqlarımızın qədim dostluq ənənələrinə malik olduğunu vurğulayıb.

Baş nazirin müavini Əli Əhmədov əlamətdar bayram münasibətilə Gürcüstan xalqını Azərbaycan hökuməti adından təbrik edib. Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu xatırladan Baş nazirin müavini bildirib ki, xalqlarımızın qədim dostluq münasibətləri mövcuddur. Ölkələrimiz müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr daha da möhkəmlənib. Bu münasibətlər Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin qarantıdır.

Əli Əhmədov regional əhəmiyyətli layihələrin həyata keçirilməsinin xalqlarımızın rifahına mühüm töhfə verdiyini vurğulayıb.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, kütləvi informasiya vasitələrinin, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**AZƏRTAC**

# Rusiya Federal Məclisi Dövlət Dumasının sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodin iyunun 25-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüb.

Vyaçeslav Volodin "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi, şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**



# Yavər Talıb oğlu Camalov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Yavər Talıb oğlu Camalov 2018-ci il iyunun 23-də ömrünün 69-cu ilində vəfat etmişdir.

Yavər Camalov 1949-cu il oktyabr ayının 17-də Sabirabad rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1967-1972-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsində neft və qaz yataqlarının işlənməsi texnologiyası və kompleks mexanikləşdirilməsi ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1972-ci ildə "Siyəzənneft" Neft və Qaz Çıxarma İdarəsində operator kimi başlayan Yavər Camalov 1973-1995-ci illərdə "Şirvanneft" Neft və Qaz Çıxarma İdarəsində neft-qaz çıxarma üzrə mühəndis, böyük mühəndis, növbə rəisi, texnologiya üzrə rəis müavini və rəis vəzifələrində çalışmışdır. O, 1995-2003-cü illərdə ARDNŞ-in "Quruda Neft və Qaz Çıxarma" İstehsalat Birliyinin, 2003-2006-cı illərdə isə "Azneft" İstehsalat Birliyinin baş direktoru olmuşdur. 2006-cı ildən ömrünün sonunadək Yavər Camalov Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsində işləmişdir.

Yavər Camalov tutduğu vəzifələrdən asılı olmayaraq çalışdığı bütün sahələrdə daim işgüzarlıq, peşəkarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Yüksək tələbkarlığı, dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona böyük hörmət qazandırmışdır. O, uzun illər boyu Azərbaycanın neft sənayesinin inkişafı naminə bilik və bacarığını əsirgəmədən, var gücünü sərf edərək ölkə iqtisadiyyatının yüksəlişinə töhfələr vermişdir.

Azərbaycan Respublikasında müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin uğurla həyata keçirilməsində Yavər Camalovun özünəməxsus xidmətləri vardır. Onun bir nazir kimi rəhbərlik etdiyi dövr ərzində nazirliyin müəssisələrində çox sayda yeni istehsal sahələri yaradılmaqla yanaşı, qurumun müasir tələblərə uyğun səmərəli fəaliyyəti nəticəsində ölkədə hərbi təyinatlı məhsulların çeşidi artmış və keyfiyyəti yüksəlmiş, müdafiə sənayesinin idxaldan asılılığının aradan qaldırılması istiqamətində nailiyyətlər əldə olunmuş və ümumilikdə Azərbaycan Ordusunun müasir silah növləri ilə təmin edilməsi üçün zəruri addımlar atılmışdır.

Yavər Camalovun ölkənin iqtisadi inkişafındakı xidmətləri daim yüksək qiymətləndirilmişdir. O, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş və müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı və səmimi insan Yavər Camalovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev, Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Hacıbala Abutalıbov, Əli Əsədov, Akif Əlizadə, Zakir Həsənov, Ramil Usubov, Elçin Quliyev, Rövnəq Abdullayev, Xoşbəxt Yusifzadə, Yəhya Musayev, Tofiq Rəfiyev**

*Vyaçeslav Volodin:*

# Azərbaycan və Rusiya arasındakı münasibətlər daha da dərinləşir

**İyunun 25-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, spiker bu cür səfərlərin münasibətlərimizin daha da dərinləşməsində əhəmiyyətli rol oynadığını söyləyib. O, MDB Parlament Assambleyasının və Avrasiya ölkələri parlament sədrlərinin toplantısında Vyaçeslav Volodinlə görüşlərini xatırlayıb. Bildirilib ki, Azərbaycanla Rusiya arasındakı əlaqələr strateji xarakter daşıyır. Dövlət başçılarının qarşılıqlı səfərləri və onlar arasındakı dostluq münasibətləri əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edir. Ölkələrimiz arasında imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazası kimi gələcək əlaqələrimizə böyük ümidlərlə baxmağa imkan yaradır.

Qeyd edilib ki, bu gün Azərbaycanda 760-dək Rusiya müəssisəsi fəaliyyət göstərir. Ölkəmizə Rusiya tərəfindən 4 milyard dollardan çox investisiya qoyulub. Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard dollar həcmində investisiya yatırılıb. Ticarət dövriyyəsi hər il artmaqdadır. Rusiyanın subyektləri ilə ölkəmiz arasındakı münasibətlər gündən-günə genişlənməkdədir. Bu gün Azərbaycanda Slavyan Universiteti, 300-dən çox rusdilli orta məktəb fəaliyyət göstərir. Ölkənin 27 ali məktəbində rus dilində dərslər tədris olunur. Azərbaycanda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filiallarında azərbaycanlı tələbələr oxuyur. Milli Məclisin deputatı Mixail Zabelinin başçılıq etdiyi "Sodrujestvo" cəmiyyəti öz ətrafında 120 mindən çox rus kökənli vətəndaşımızı birləşdirib. Ölkədə rus dilində onlarla qəzet və jurnal nəşr olunur. Hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərməsi bu sahədə münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir.

Sədr Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsindən danışaraq, bu məsələnin sülh yolu ilə tezliklə aradan qaldırılmasının region üçün əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Azərbaycanın problemin həllindəki mövqeyi beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. Münaqişə beynəlxalq hüquq normaları çərçivəsində öz ədalətli həllini tapmalıdır.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin ölkəmizə səfərindən və burada gördüklərindən məmnun qaldığını söyləyib. Bildirilib ki, Azərbaycan və Rusiya arasındakı münasibətlər həyatın müxtəlif sahələrində daha da dərinləşməkdədir. Ölkələrimiz arasındakı ticarət dövriyyəsinin ildən-ilə daha da artması, xalqlarımızın rifahı naminə yüksək səviyyəli siyasi dialoqun davam etdirilməsi bu fikri bir daha təsdiqləyir.

Qonaq dövlət başçıları arasındakı səmimi münasibətlərin əlaqələrimizin daha da dərinləşməsinə xidmət etdiyini söyləyib. O, deputatlarımızın qarşılıqlı səfərlərini onları maraqlandıran məsələlərin müzakirəsi baxımından əhəmiyyətli hesab edib, Azərbaycanda rusdilli təhsil ocaqlarının fəaliyyətindən, qəzet və jurnalların nəşrindən məmnun qaldığını deyib, rus mədəniyyətinə bəslənilən bu münasibətə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib.

Qəbulda tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, sədrin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri, parlamentin komitə sədri Əli Hüseynli, deputatlardan Mixail Zabelin, Sevinc Hüseynova, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**

# OPEC-in baş katibi Azərbaycanın OPEC+ əməkdaşlığına bundan sonra da töhfə verəcəyinə əmindir

**Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo Azərbaycanın OPEC+ əməkdaşlığına bundan sonra da töhfə verəcəyinə əmindir.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Vyanada OPEC+ nazirlərinin 4-cü görüşü çərçivəsində Azərbaycanın energetika naziri Pərviz Şahbazov OPEC-in baş katibi Məhəmməd Sanusi Barkindo ilə görüşüb. Görüşdə neft hasilatının artırılması ilə bağlı qəbul olunmuş qərar müzakirə edilib. Neft bazarında tarazlığın bərpa edilməsi prosesində iştirakçıların rolu yüksək qiymətləndirilib. Neftin gələcək illərdə artan tələbatı ödəməsi və enerji balansında mövqeyinin möhkəmlənməsi üçün OPEC+ formatında əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olunub. Qəbul edilmiş qərarın icra prosesi ətrafında fikir mübadiləsi aparılıb.

OPEC-in baş katibi Azərbaycanın OPEC+ əməkdaşlığına bundan sonra da töhfə verəcəyinə əminliyini ifadə edib.

Pərviz Şahbazov söhbət zamanı OPEC+ tədbirlərindən birinin gələn il Azərbaycanda keçirilməsi təklifini diqqətə çatdırıb. Nazir neft sənayesinin ilkin məkanı kimi Bakıda belə bir tədbirin keçirilməsinin neft ölkələri üçün tarixi bir hadisə olacağını qeyd edib.

**AZƏRTAC**

# Azərbaycanın energetika naziri Vyanada bir sıra görüşlər keçirib

**Vyanada Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv dövlətlərin nazirlərinin dördüncü görüşü çərçivəsində Azərbaycanın energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri, OPEC konfransının prezidenti Suhail Mohamed Al Mazrouei ilə görüşüb.**



Energetika Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə qlobal neft bazarının sabitliyi ilə bağlı OPEC+ çərçivəsində görülən tədbirlər, qəbul edilən yeni qərar və Azərbaycan-OPEC əməkdaşlığı ətrafında müzakirələr aparılıb. Eləcə də Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında bərpa olunan enerji mənbələri sahəsində mümkün əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Pərviz Şahbazovun İraqın neft naziri Cabbar Əli əl-Layibi ilə də görüşü olub. Görüşdə dünya neft bazarının inkişaf tendensiyaları ilə yanaşı iki ölkə arasında enerji əməkdaşlığının mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb. İraqın neft naziri yaxın vaxtlarda Azərbaycana səfər edərək neft sektorunun inkişafı ilə yaxından tanış olmaq istəyini ifadə edib.

**AZƏRTAC**

# Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Azərbaycana rəsmi səfərə gəlib

**Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyəti iyunun 24-də Azərbaycana rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Rusiya Federal Məclisi Dövlət Dumasının sədrini Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov qarşılayıb.

**AZƏRTAC**



# Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Heydər Əliyev Mərkəzində olub

**Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyəti iyunun 25-də Heydər Əliyev Mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, qonaqlara Heydər Əliyev Mərkəzinin binası haqqında və Mərkəzin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin zəngin irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib. Bundan əlavə, Heydər Əliyev Mərkəzinin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə populyarlaşdırılmasına və təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət göstərir.

Mərkəzdəki Heydər Əliyev Muzeyi qonaqların böyük marağına səbəb olub.



Muzeyin "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs və nailiyyətlər", "Fotolarda əks olunmuş həyat" bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir.

Nümayəndə heyəti Mərkəzin "Azərbaycan inciləri" sərgisi ilə tanış olub. Qeyd edilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətlərinə, çoxəsrlik tarixinə, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Sərgidə qədim sənətlərin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri yer alıb, mis məmulatlar xüsusi maraq doğurur. Azərbaycanın qədim musiqi alətləri orijinal formada - səsli təqdim olunur. Milli geyimlərimizin, qədim sikkələrimizin nümayiş etdirildiyi ekspozisiyada müxtəlif dillərdə müqəddəs kitablar da təqdim olunur.

Qonaqlar, həmçinin Bakıda və regionlardakı tarixi memarlıq abidələrinin maketlərini əks etdirən "Mini Azərbaycan" sərgisinə baxıblar.

Nümayəndə heyətinin üzvləri "Heydər Əliyev. Şəxsiyyət, missiya, irs" Rusiya-Azərbaycan tarixi sənədli sərgisi ilə də tanış oldular.

Vyaçeslav Volodin Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

**AZƏRTAC**

# Müdafiə Nazirliyinin rəhbərliyi ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







**Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 25-də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı üzərinə əklil və gül dəstələri qoyub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn Müdafiə Nazirliyinin şəxsi heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi də ziyarət edilib.

**AZƏRTAC**

# Dövlət Komitəsində Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüş olub

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprakla görüşüb. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**

Dövlət Komitəsinin sədri qaçqınlar və məcburi köçkünlər məsələsinin qlobal problemə çevrildiyini vurğulayıb, Azərbaycanın da 30 ildir bu problemlə üz-üzə qaldığını, Ermənistanın təcavüzkar siyasəti nəticəsində bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşdüyünü xatırladıb. Bildirilib ki, qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli Azərbaycan dövlətinin prioritetlərindən biri kimi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə irihəcmli proqramlar icra edilir. Ağır və qəzalı şəraitdə yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Dövlət Komitəsinin sədri BMqT-nin Azərbaycanda qaçqın və məcburi köçkünlərlə bağlı icra etdiyi layihələrə görə təşəkkür edib.

Serhan Aktoprak Azərbaycanın məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı atdığı addımları yüksək qiymətləndirib. Vurğulayıb ki, BMqT Azərbaycanda məcburi köçkünlərlə bağlı həyata keçirilən layihələrin iştirakçısı olmaqdan məmnunluq duyur.

Görüşdə Dövlət Komitəsi ilə BMqT arasında mövcud və gələcək tərəfdaşlıq məsələləri, qarşılıqlı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Nazir Şirvan şəhərindəki reabilitasiya mərkəzində



**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Şirvana səfəri çərçivəsində Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzinə gəlib, burada göstərilən reabilitasiya xidmətləri ilə yerindəcə tanış olub.**

Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumatda qeyd olunur ki, müəssisədə Şirvan şəhərində və ətraf rayonlarda yaşayan əlilliyi olan şəxslərə stasionar və ambulator qaydada bərpa müalicəsi xidmətləri göstərilir. Nazir mərkəzdə yaradılmış şəraiti, burada tətbiq olunan fizioterapevtik müalicə prosedurlarını, əlilliyi olan insanların tibbi, sosial, habelə peşə diaqnostikası və reabilitasiyası üçün aparılan işləri nəzərdən keçirib. S.Babayev mərkəzdə bərpa müalicəsinə cəlb edilmiş əlilliyi olan şəxslərlə də görüşüb, göstərilən xidmətlərlə, tətbiq olunan bərpa müalicəsi prosedurlarının nəticələri ilə bağlı onların fikirlərini öyrənib.

Müəssisədə tibbi reabilitasiya olunan şəxslər ölkəmizdə fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə uyğunlaşdırılması, onların həm tibbi, həm də sosial reabilitasiya proqramlarına cəlb olunması və sosial müdafiəsi istiqamətində fəal dövlət siyasətinin aparıldığına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Müəssisənin kollektivi ilə görüşdə nazir reabilitasiya sisteminin əliliyi olan şəxslərin sağlamlığının bərpası, həmin şəxslərin yenidən sağlam insan kimi cəmiyyətə qaytarılması, reabilitasiya səviyyəsinin artırılması məqsədinə xidmət etdiyini vurğulayıb. O bildirib ki, digər bərpa müəssisələri kimi, Şirvan şəhərindəki Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzi də fəaliyyətini məhz bu məqsədə uyğun qurmalıdır. Əlilliyi olan insanlara xidmətlər yalnız tibbi yanaşma əsasında deyil, həmçinin sosial reabilitasiya yönümlü olmalıdır.

S.Babayev bərpa müalicəsi prosedurlarında konkret səmərəli nəticələrə imkan verən təkmilləşdirmə işlərinin aparılması, həkim-reabilitoloqların peşəkarlıq səviyyələrinin artırılması, əlilliyi olan insanlarla işin fərdi reabilitasiya planları əsasında təşkil edilməsi, onlara daim qayğı və həssaslıqla yanaşılması və s. barədə tapşırıqlar verib.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Bakıda "Gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi" mövzusunda konfrans keçirilib

**İyunun 25-də Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 26 iyun - narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə beynəlxalq mübarizə günü ilə əlaqədar "Gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Prezidentinin 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinin icrasını təmin etmək məqsədi daşıyıb.

Eyni zamanda, məqsəd BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun - Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı ümumdünya mübarizə gününün qeyd olunmasıdır.

Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov konfransda çıxış edərək Azərbaycanda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində görülən işlərdən, ölkədə bu məsələyə dövlət səviyyəsində göstərilən diqqət, bu sahədə həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verib.

Əli Həsənov bildirib ki, ölkəmizdə narkomanlığa qarşı mübarizə narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılması və profilaktik tədbirlər olmaqla iki əsas istiqamət üzrə aparılır. Dövlət Komissiyasının işçi qrupu narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində fəaliyyət göstərən aidiyyəti qurumların fəaliyyətini əlaqələndirilməklə onlarla birgə xüsusilə yeniyetmə və gənclər arasında antinarkotik təbliğatının aparılmasına xüsusi önəm verir, geniş ictimai maarifləndirmə tədbirləri həyata keçirir.

Bu istiqamətdə birgə səylərin gücləndirilməsinin vacibliyini vurğulayan Baş nazirin müavini qeyd edib ki, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizə aparmaq üçün Azərbaycanda mükəmməl qanunvericilik bazası yaradılıb. Milli Məclis bu istiqamətdə mühüm qanunlar, Nazirlər Kabineti isə qərarlar qəbul edib. Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən müvafiq fərman və sərəncamlar imzalanıb. Bundan başqa, Azərbaycan bu istiqamətdə beynəlxalq konvensiyalara qoşulub.

Azərbaycan ərazisinin narkotrafikinq üçün istifadə edilməsinin qarşısının alınmasında ölkəmizin müvafiq orqanlarının rolunu qeyd edən Dövlət Komissiyasının sədri bildirib ki, ölkəmizdə həyata keçirilən layihələrin icrası ilə əlaqədar yükdaşımalar artdığı üçün beynəlxalq narkomafiyanın müxtəlif nəqliyyat yolları ilə narkotik vasitələri daşıması cəhdləri olub. Son illər Azərbaycan hüquq mühafizə orqanları narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılması istiqamətində daha da fəallaşıblar. Bu ilin beş ayında Azərbaycanda 1 ton 400 kiloqrama yaxın narkotik vasitə aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb. Ölkəmizdə bu problemlə mübarizə aparmaq üçün müvafiq qurumlar kifayət qədər tədbirlər görür.

Əli Həsənov Azərbaycanın narkotiklərlə mübarizədə qonşu və digər dövlətlərlə məlumat və təcrübə mübadiləsi istiqamətində sıx əməkdaşlıq etdiyini vurğulayıb. Əminliyini bildirib ki, narkomaniyaya qarşı mübarizə sahəsində dövlətimiz tərəfindən atılan addımlar öz müsbət nəticələrini verməkdədir.

Baş nazirin müavini diqqətə çatdırıb ki, ermənilər işğal olunmuş ərazilərimizdən narkotik vasitələrin yetişdirilməsi və daşınması üçün istifadə edirlər. Bunun qarşısının alınması və monitorinqin aparılması üçün beynəlxalq qurumlara dəfələrlə müraciət olunub. Təcavüzkar dövlət işğal altındakı torpaqlarımızda narkotik maddələri yetişdirib satır və bunun əvəzində silah alır. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın yaxın qohumları narkotik alveri ilə məşğul olurlar.

Gənclər və idman naziri Azad Rəhimov konfransda çıxış edərək deyib ki, narkomaniyaya qarşı mübarizə və gənclərin sağlam böyüməsi istiqamətində nazirlik tərəfindən tədbirlər həyata keçirilir. Sağlam həyat tərzinin təbliği məqsədilə "Həyatla oyun" adlı tamaşa rayon və şəhərlərdə, məktəblərdə, cəzaçəkmə müəssisələrində nümayiş olunub. Narkomaniyanın qarşısının alınmasında gənclərin asudə vaxtının səmərəli təşkili, onların idmana cəlb edilməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan nazirlik tərəfindən "Gənclər evi" sosial xidmət müəssisələri yaradılır. Hazırda ölkədə 41 Gənclər Evi və ya Mərkəzi fəaliyyət göstərir. Eyni zamanda, idmanın kütləviliyinin təmin edilməsi üçün ölkədə 40-dan çox Olimpiya İdman kompleksi inşa edilib. Bütün bunlar gənclərin sağlam vətəndaş kimi formalaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov narkomaniyaya qarşı mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən müxtəlif ictimai maarifləndirmə tədbirlərindən, "ağ ölüm"lə mübarizədə gənclər təşkilatlarının rolundan danışıb. Gənclər təşkilatları tərəfindən cəmiyyətdə narkomanlığın zərərli təsirləri ilə bağlı məlumatlandırma, maarifləndirmə və profilaktiki işlərin aparılmasının diqqət mərkəzində olduğunu vurğulayıb.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, "Narkomanlığa qarşı mübarizə" mövzusunda gənc jurnalistlər arasında keçirilmiş ən yaxşı müəllif yazıları müsabiqəsinin münsiflər heyətinin sədri Vüqar Rəhimzadə narkomaniya ilə mübarizənin Azərbaycanın dövlət siyasətində mühüm istiqamət olduğunu deyib, müsabiqənin əhəmiyyətindən danışıb. Qeyd edilib ki, müsabiqənin məqsədi KİV-lərdə sağlam həyat tərzinin təbliğ olunması və bununla ictimaiyyətin, xüsusilə gənclərin məlumatlılığının artırılması, bu istiqamətdə mətbuatda dərc olunan materialların sayının artırılmasının stimullaşdırılması və gənc jurnalistlərin yaradıcılıq qabiliyyətlərinin nümayiş olunmasına şərait yaradılmasıdır.

Dövlət Komissiyasının işçi qrupunun əməkdaşı Raqif Allahverdiyev "Yeniyetmə və gənclər arasında keçirilmiş siqaret, alkoqol və narkotik maddələrin qəbulu haqqında sorğu"nun nəticələrini təqdim edib.

Çıxışlarda yekdilliklə bildirilib ki, narkomaniyaya qarşı cəmiyyətin bütün üzvləri birgə mübarizə aparmalı, yeniyetmə və gənclər arasında maarifləndirmə tədbirləri daimi xarakter almalıdır.

Sonda "Narkomanlığa qarşı mübarizə" mövzusunda gənc jurnalistlər arasında keçirilmiş ən yaxşı müəllif yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıblar.

**AZƏRTAC**

# Məcburi köçkünlər üçün əmək yarmarkası

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Bakının Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində məcburi köçkünlər üçün əmək yarmarkası keçirilib. Məcburi köçkünlərin məşğulluğuna dəstək məqsədi daşıyan aktiv məşğulluq tədbirində Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə 70 müəssisədən 532 vakant iş yeri təqdim olunub.**

Tədbirin açılışında əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Metin Kərimli və Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov iştirak ediblər. M.Kərimli vurğulayıb ki, əhalinin məşğulluğunun təminatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir və dövlət məşğulluq orqanları tərəfindən bu istiqamətdə tədbirlər ildən-ilə gücləndirilir. Nazir müavini "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq, qaçqınların və məcburi köçkünlərin məşğulluğunun təmin olunmasının dövlət məşğulluq orqanlarının fəaliyyətində mühüm yer tutduğunu diqqətə çatdırıb. O bildirib ki, cari ilin 5 ayında da dövlət məşğulluq orqanları tərəfindən məşğulluğu təmin olunanların 1,9 min nəferini, peşə hazırlığına cəlb edilənlərin 91 nəferini məcburi köçkünlər təşkil edib. Özünüməşğulluq proqramı çərçivəsində məcburi köçkünlərin məşğulluğuna dəstək verildiyini qeyd edən M.Kərimli diqqətə çatdırıb ki, ötən il həmin proqram vasitəsilə 206 məcburi köçkün ailəsi kiçik ailə təsərrüfatlarını yaradıb.



Cari ildə də 1100-ə yaxın məcburi köçkün ailəsinin özünüməşğulluq proqramında iştirakı proqnozlaşdırılır, artıq onlardan bir hissəsi bunun üçün kiçik biznesin təşkili üzrə təlim kurslarına cəlb olunub. Nazir müavini təşkil olunan bu əmək yarmarkasının Müşfiqabad qəsəbəsində yaşayan məcburi köçkünlərin əmək bazarına çıxış və məşğulluq imkanlarının artırılmasına yönəldiyini bildirib.

Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədr müavini F.Hüseynov ötən dövrdə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən bəhs edib, həmin insanların məşğulluğunun təmin edilməsi üçün Komitə tərəfindən aidiyyəti tədbirlərin həyata keçirildiyini vurğulayıb. O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirilən bu əmək yarmarkasının əhəmiyyətini qeyd edib, gələcəkdə də belə tədbirlərin təşkili üçün müvafiq işlərin aparılacağını diqqətə çatdırıb.

**Mustafa KAMAL,**
**"Respublika".**

# "Heydər Əliyev: liderlik dərsi" sənədli filmi Ukrayna telekanalında

Ukraynanın "Rada" televiziya kanalı Azərbaycanın Milli Qurtuluş Gününün 25-ci ildönümü münasibəti ilə Ukrayna Milli Televiziyası tərəfindən çəkilmiş "Heydər Əliyev: liderlik dərsi" sənədli filmini yayımlayıb. Film efirə getməmişdən öncə televiziya kanalının qonağı olan Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev 25 il bundan öncə ölkəmizdə baş verən mürəkkəb ictimai-siyasi proseslərdən bəhs edib. Azərbaycanın parçalanmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda xalqımızın təkidli tələbi ilə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin müdrik siyasəti və dəmir iradəsi nəticəsində respublikamızın düçar olduğu bəlalardan xilas olunduğunu diqqətə çatdırıb. Ulu öndərin 10 illik hakimiyyəti illərində Azərbaycanın inkişaf edərək dünyanın aparıcı ölkələri sırasında öz layiqli yerini tutduğunu bildirən diplomat, 2-ci dəfə hakimiyyətə gəlişi ilə xalqımızın milli xilaskarına çevrilmiş dahi Heydər Əliyev ideologiyasının Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini vurğulayıb. Sonra nüfuzlu televiziya kanalı "Heydər Əliyev: liderlik dərsi" sənədli filmini Ukrayna ictimaiyyətinə təqdim edib.

Ukraynanın Əməkdar jurnalisti Sergey Sivolap və yazıçı-publisist, professor Əlibala Məhərrəmzadənin ssenarisi əsasında çəkilmiş sənədli filmdə Heydər Əliyevin zəngin həyat yolu, müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində ulu öndərin misilsiz xidmətləri tarixi faktlarla geniş tamaşaçı auditoriyasına təqdim olunub. Filmdə Ukraynanın 1-ci prezidenti Leonid Kravçuk, 2-ci prezidenti Leonid Kuçma və dost ölkənin tanınmış ictimai-siyasi xadimləri, zəngin həyat fəlsəfəsi ilə bəşər tarixinin müdriklik salnaməsinə əbədi imza atmış ulu öndər Heydər Əliyevi XX və XXI əsrin siyasi liderlik dərsinin kamil müəllimi kimi xarakterizə ediblər. Onun siyasi ideologiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini müdrik və uzaqgörən siyasətin məntiqi nəticəsi kimi dəyərləndiriblər.

Filmdə Heydər Əliyevin Çernobıl faciəsi zamanı keçmiş SSRİ rəhbərliyinin siyasi iradəsinə qarşı çıxaraq Ukrayna xalqına göstərdiyi köməkliyi fəxarət hissi ilə xatırlayan Ukraynanın keçmiş baş nazirinin müavini Konstantin Masik o zaman, faciə bölgəsindən 8 yüz min qadının və uşağın təhlükəsiz bölgələrə köçürülməsini təmin etmiş Heydər Əliyevi Ukrayna xalqının gələcək genefondunun xilaskarlarından biri adlandırıb.

Filmin redaktoru Möhsüm Aslanov, rejissoru Georgi Spasokukotski, prodüsseri Anar Tahirovdur.

**Qədir ASLAN,**
**"Respublika".**

# BƏƏ-nin mobil operatorunun qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" ilə rominq razılaşması ləğv edilib

**Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi tərəfindən görülmüş tədbirlər nəticəsində bu ölkənin mobil operatoru olan "Etisalat"ın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" ilə rominq razılaşması ləğv edilib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.

H.Hacıyev deyib ki, Ermənistan Beynəlxalq Telekommunikasiya İttifaqının təlimat və qaydalarına zidd olaraq, onun üçün ayrılmış "+374" beynəlxalq kodunu Azərbaycanın işğal olunmuş ərazilərinə də şamil edir və bununla Azərbaycanın radio-telekommunikasiya məkanına, radio tezliklərinə qanunsuz müdaxilə edir. Həmçinin Beynəlxalq Telekommunikasiya İttifaqı ölkələr üzrə mobil kodlar (MCC) və mobil şəbəkə kodlarının (MNC) ayrılmasına məsul olduğu halda, "Karabakh Telecom" BTİ-nin E.212 saylı təlimatını pozaraq, "283" ölkə üzrə mobil kodunu və "04" mobil şəbəkə kodunu Azərbaycanın işğal olunmuş ərazilərində tətbiq edir.

Hazırda Ermənistanda aparılan korrupsiya tərkibli cinayət işlərində "Karabakh Telecom" şirkətinin də adı hallanır.

Beynəlxalq hüququn norma və prinsiplərini, Beynəlxalq Telekommunikasiya İttifaqının təlimat və qaydalarını, həmçinin korporativ biznes etikası qaydalarını əsas tutaraq, ölkəmizin işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" şirkətinin digər beynəlxalq mobil operatorlarla rominq əməkdaşlığı bundan sonra da dayandırılacaq.

**AZƏRTAC**

*Azərbaycan Silahlı Qüvvələri - 100*

# AZƏRBAYCANIN ÜÇRƏNGLİ BAYRAĞI QARABAĞDA DALĞALANACAQ

*Müsahibimiz ehtiyatda olan general-leytenant Yaşar Aydəmirovdur*



**- Cənab general-leytenant! Xalqımız bu günlərdə müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini təntənəli şəkildə qeyd etdi. İki ilə yaxın fəaliyyət göstərmiş Cümhuriyyət hökuməti çox çətin tarixi şəraitdə bir sıra mühüm işlərin görülməsinə nail oldu, xalqımızın dövlətçilik tarixinə şanlı səhifələr yazdı. Ən əhəmiyyətli məsələlərdən biri, sözsüz ki, ölkəmizin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsi, qısa müddətdə yüksək döyüş qabiliyyətli nizami ordunun yaradılması oldu. Bu gün xalqımız Silahlı Qüvvələrin 100 illiyini böyük qürur və fəxr hissi ilə qeyd edir...**

- Tamamilə doğru buyurursunuz. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın zəngin dövlətçilik tarixinə çox dəyərli səhifələr yazdı. İndi bununla hər bir Azərbaycan vətəndaşı böyük fəxarət hissi keçirir. Müstəqillik hər bir xalqın ən böyük sərvətidir. Onu əldə etmək kimi, qorumaq və yaşatmaq da böyük hünər tələb edir. Bəlli olduğu kimi, Xalq Cümhuriyyəti çox mürəkkəb bir tarixi-siyasi şəraitdə yaranmışdı - həm daxili, həm də xarici amillər nöqteyi-nəzərindən. Belə bir deyim var: öz ordusunu yarada bilməyən xalq, başqa dövlətin ordusunu yedizdirməyə məhkumdur. Azərbaycan Xalq Cümhuriyyəti də yenicə qazanılmış müstəqilliyin qorunması məqsədilə ilk növbədə milli hərbi qüvvələrin yaradılmasını ön plana çəkdi. Lakin bu yolda bir sıra obyektiv çətinliklər mövcud idi. Ən əsası o idi ki, Çar Rusiyası azərbaycanlıları orduda xidmətə çağırmadığından hərbi səriştəli kadrlar yox dərəcəsində idi. Buna baxmayaraq, ayrı-ayrı hallarda həmvətənlərimiz sırasından orduda qulluq edən zabitlərimiz olmuş, hətta görkəmli sərkərdələr kimi ad-san qazanmışdılar. Onların sırasında Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid Naxçıvanski və digərləri vardır. Məhz Mehmandarov və Şıxlinski kimi sərkərdələrimizin sayəsində Cümhuriyyət ordusunun yaradılmasına başlandı. Lakin çətinliklər çox idi. Ölkə daxilində güclü qarşıdurma vardı. Erməni-daşnak-bolşevik qüvvələri, onların kənardakı havadarları müstəqilliyimizə qənim kəsilmişdilər. Odur ki, daim təxribatlar törədilir, münaqişə ocaqları yaradılırdı. 1918-20-ci illərin xəritəsinə nəzər salsaq görərik ki, ölkə hüdudları çərçivəsində elə bir yer yox idi ki, orada münaqişələr, döyüşlər baş verməsin. Bütün bunlar, sözsüz ki, ordu yaradılması işinə ciddi əngəllər törədirdi. Başqa obyektiv çətinliklər də vardı. Ordu yaratmaq üçün, sözsüz ki, birinci növbədə peşəkar zabit kadrları lazımdır. Çünki hərbi xidməti təşkil etmək, bölmələri formalaşdırmaq, təşkilati-ştat strukturlarını yaratmaq, döyüş hazırlığı ilə məşğul olmaq məhz onların vəzifəsidir. O dövrdə, yuxarıda qeyd etdiyim kimi, rus ordusunda qulluq edən zabit kadrlarımız azlıq təşkil edirdi. Həm də Azərbaycan ərazisində elə bir qoşun birliyi, birləşməsi yox idi. Onlar əsasən qonşu Gürcüstan və Ermənistan ərazisində yerləşdirilmişdi. Odur ki, hərbi nazir S.Mehmandarov məcbur olub yaxın ölkələrdən, xüsusən Gürcüstandan zabit kadrları dəvət edirdi.

Digər çətinliklər sırasında maddi-texniki təminat məsələləri, qoşunların komplektləşdirilməsi zamanı çağırış-səfərbərlik işləri sahəsində ortaya çıxan problemlər və s. qabarıq şəkildə özünü göstərirdi. Bütün bunlara baxmayaraq, hərbi nazir S.Mehmandarov, nazir müavini Ə.Şıxlinski kimi bacarıqlı sərkərdələrin təşkilatçılıq məharəti, yorulmadan göstərdiyi səylər nəticəsində qısa müddət ərzində nizam-intizamlı, kifayət qədər döyüş hazırlığına malik ordu formalaşdırıldı. İftixarla qeyd edə bilərik ki, onun yaradılmasında yüksək peşəkarlıq qabiliyyətinə malik Cavad bəy Şıxlinski, Əbdülhəmid bəy Qaytabaşı, Murad Gəray bəy Tlexas, İbrahim ağa Usubov, Məmməd bəy Sulkeçiv, Şahzadə Əmir Kazım Mirzə Qacar, Davud bəy Yadigarov, Xəlil bəy Talışxanov, Əlyar bəy Haşımbəyov, Teymur bəy Novruzov, Cavad bəy Məlikyeqanov, Xosrov bəy Sultanov, Feyzulla Mirzə Qacar, Səməd bəy Rəfibəyov, Məmmədsadıq bəy Ağabəyzadə (ümumiyyətlə 30 nəfərə qədər) kimi generallar öz töhfələrini vermişlər.

**- Və bu ordu qüvvələri nəyə qadir olduğunu tezliklə döyüş meydanında göstərdi...**

- Bəli, bu belədir. General Həbib bəy Səlimovun komandanlığı altında milli hərbi bölmələrimiz Müsüslü, Kürdəmir, Ağsu, Göyçay istiqamətlərində erməni-daşnak və bolşevik qüvvələrinə sarsıdıcı zərbələr vuraraq onları zərərsizləşdirdilər. 1918-ci ilin iyul ayında Muğan və Lənkəranda milli hakimiyyəti tanımaq istəməyən malakan və erməni-rus silahlı birləşmələri darmadağın edildi. Yaxud başqa bir fakt. 1920-ci il martın 22-də, Novruz bayramı günü erməni daşnakları Əsgəran keçidini bağlayaraq Qarabağın yuxarı hissəsini Azərbaycandan ayırmağa cəhd göstərdilər. Hərbi nazir S.Mehmandarovun əmri ilə beş alayın zabit və əsgər kontingentindən ibarət qoşun dəstəsi Həbib bəy Səlimovun komandanlığı altında Qarabağ cəbhəsinə göndərildi. Bir neçə gün davam edən ölüm-dirim savaşı nəticəsində Əsgəran qalası alındı, milli hərbi dəstələrimiz Şuşa və Xankəndinə daxil oldular. Ay-ulduzlu, üçrəngli bayrağımız yenidən Qarabağ üzərində dalğalanmağa başladı. Bu əməliyyatlarda böyük sərkərdəlik məharəti nümayiş etdirən H.Səlimov hərbi nazirin əmri ilə tezliklə general-mayor rütbəsinə layiq görüldü.

**- Qarşıdan isə 28 aprel gəlirdi. Xalqımızın, müstəqilliyimizin başı üzərində qara buludlar sıxlaşmaqda idi...**

- Döyüş meydanında ordumuzun öz gücünü göstərməsindən sonra müstəqilliyimizi qəbul etmək istəməyən həm erməni-daşnak qüvvələri, həm də başda Lenin olmaqla inqilabçı bolşeviklər fəal hərəkata keçməyə başladılar. Onlar heç vəchlə Azərbaycanı əldən vermək fikrində deyildilər. Bunun üçün müəyyən strateji planlarını da həyata keçirmişdilər. Ölkənin həm qərbində, həm mərkəzində, həm də cənubunda yaradılan münaqişə ocaqları hökuməti vadar edirdi ki, hərbi qüvvələri orada cəmləşdirsin. Hərb tariximizin araşdırıcısı, Mehman Süleymanovun üzə çıxardığı bir xəritə çox mətləblərdən xəbər verir. Orada beşinci Azərbaycan diviziyasının yerləşdiyi ərazilər əks etdirilmişdir. Məlum olur ki, bu diviziya səpələnmiş, parçalanmış bir şəkildə fəaliyyət göstərmişdir. Belə ki, onun bölmələri bir-birindən xeyli aralıda - Tərtər, Qazax, Gəncə, Zaqatala, Nuxa, Ağdam, Şuşa, Cəbrayıl, Əsgəran, Xocalı, Xankəndi istiqamətlərində yerləşdirilmişdir. Sadə bir həqiqətdir ki, hər hansı hərbi hissə, birlik dağınıq halda yox, yalnız kompakt şəkildə fəaliyyət göstərdikdə döyüş tapşırığını uğurla yerinə yetirə bilər. Ölkə ərazisində daxili münaqişə ocaqlarının qəsdən yaradılması digər hərbi hissələrin də həmin münaqişə ocaqlarına yaxın yerləşdirilməsini tələb edirdi. Beləliklə, ölkənin şimal sərhədləri, Quba, Qusar, Xaçmaz bölgələri demək olar ki, tam müdafiəsiz qalmışdı. Bu isə XI qırmızı ordunun ölkəmizin ərazisinə əslində müqavimətsiz daxil olmasına şərait yaradırdı. Belə də olur. Aprelin 27-dən 28-nə keçən gecə sərhədlərimizi keçən qırmızılar müstəqilliyimizi beşiyindəcə boğur. Baxmayaraq ki, Azərbaycanı dünyanın neçə-neçə ölkəsi müstəqil subyekt kimi tanımışdı... Parlament buraxılır, hökumət təslim olur. Təqiblər, repressiyalar, həbslər baş alıb gedir.

Aprel işğalı Cümhuriyyət ordusundan da yan keçmir. Onun saxlanılacağına, fəaliyyətinə guya təminat verilsə də, tezliklə bunun əksi baş verir. Qırmızı terror neçə-neçə görkəmli sərkərdələrimizin həyatına son qoyur. Nargin adası güllələnmə aktının həyata keçirildiyi ölüm düşərgəsinə çevrilir...

**- Lakin 70 il davam edən sovetləşmə dövrü xalqımızın müstəqillik arzusunu unutdura bilmədi. 1990-cı illərin əvvəllərində Azərbaycan öz suverenliyini bərpa etdi. Bununla birlikdə Silahlı Qüvvələrimizin yaradılmasına başlandı. Cənab general, Siz ötən dövr ərzində ordumuzun keçdiyi inkişaf yolunu qısaca olaraq necə səciyyələndirərdiniz?**

- Necə ki müstəqil Azərbaycan o dövrkü Xalq Cümhuriyyətinin varisi elan olunub, eləcə də Silahlı Qüvvələrimiz 1918-20-ci illər ordusunun yetirməsi sayılır. Oxşar cəhətlər hər iki dövr üçün müəyyən qədər də olsa xarakterikdir. 90-cı illərin əvvəllərində hərbi qüvvələrimizin yaradılmasına başlanması mənfur qonşularımızın xalqımıza, torpaqlarımıza qarşı təcavüzü, işğalı fonunda davam edirdi. Köhnə ictimai quruluşun dağılması və yenisinin hələ formalaşmaması ölkə daxilində bütün sahələrdə ciddi çaxnaşmalara səbəb olmuş, vətəndaş itaətsizliyi güclənmiş, müxtəlif qruplar arasında qarşıdurmalar yaranmış, tənəzzül, anarxiya, xaos baş alıb gedirdi. Təbii ki, belə bir şərait cəmiyyət həyatında olduğu kimi, ordu quruculuğu sahəsində də ürəkaçan heç nə vəd etmirdi. Bu vəziyyət 1993-cü ilin iyun ayınadək davam etdi. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra mənzərə tam dəyişdi. Ölkənin həyatında yeni ab-hava hökm sürməyə başladı. İdarəçilik, dövlət quruculuğu sahəsində uzaqgörənliklə həyata keçirilən məqsədyönlü siyasət tədricən cəmiyyət həyatının stabilləşməsinə, durğunluq və tənəzzülün öz yerini mütərəqqi inkişafa verməsinə yol açdı. Bütün bunlar, eləcə də təcavüzkar Ermənistanla atəşkəs sazişinin imzalanması Silahlı Qüvvələrimizin yaradılması yolundakı əngəlləri sıxışdırıb aradan çıxarmağa başladı. Ordu quruculuğu istiqamətində aparılan məqsədyönlü işlərə start verildi. Bütün bunlar barədə cəmiyyətdə kifayət qədər məlumat var, onları təkrarlamaq fikrində deyiləm. Yalnız onu vurğulamaq istəyirəm ki, Silahlı Qüvvələrimiz əvvəlcə qüdrətli sərkərdəmiz Heydər Əliyevin, sonra isə onun layiqli davamçısı İlham Əliyevin komandanlığı altında uğurlu inkişaf yolu keçmiş, dünyanın qabaqcıl ordularından birinə, regionun ən güclü ordusuna çevrilmişdir. Silahlı Qüvvələrimizin nəzdində yaradılmış sülhməramlı taborumuzun şəxsi heyəti beynəlxalq antiterror əməliyyatlarına, eləcə də Kosovoda sülhyaratma əməliyyatlarında yaxından iştirak etmiş, hazırda Əfqanıstanda humanitar missiyasını uğurla yerinə yetirməkdədir. Hərbçilərimizin nümunəvi xidməti bir neçə dəfə NATO komandanlığının təşəkkürünə layiq görülmüşdür...

Ordumuz silah-sursat, hərbi texnika, ən müasir döyüş avadanlıqları və qurğuları ilə kifayət qədər təmin olunmuşdur. Ölkəmizdə yaradılmış Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 çeşiddə döyüş məmulatı istehsal edilir. Artıq 10 ilə yaxındır ki, beynəlxalq silah sərgilərində iştirak edirik. Dörd ildir ki, ölkəmizdə də belə sərgilər təşkil olunur. Bu cür sərgilərdə iştirakımız ixrac imkanlarımızı artırmaqdadır. Dünyanın çox az ölkəsində mövcud olan elektron impulslu silahların yaradılması istiqamətində işlər aparılmaqdadır. Bir sözlə, ölkəmizin iqtisadi inkişafı ordumuzun gələcəkdə də ən müasir və modern silahlarla təmin olunmasını təmin edəcəkdir.

**- Cənab general, söhbətimizin mövzusuna birbaşa aidiyyəti olmasa da, belə bir suala cavab verməyinizi istəyirəm: Siz bir müddət Çin Xalq Respublikasında Azərbaycanın hərbi attaşesi kimi fəaliyyət göstərmisiniz. Bilmək maraqlı olardı: Çindən baxanda Azərbaycan necə görünür? Bu iki ölkəni nə birləşdirir? Ümumiyyətlə, ölkələrimiz arasında hərbi əməkdaşlıq əlaqələri nə səviyyədədir?**

- Bildiyimiz kimi, Çin Xalq Respublikası dünyanın üç nəhəng dövlətindən biridir. Ərazisi, əhalisi və digər bəzi cəhətlərinə görə fərqlənən bu ölkələri Şərq mədəniyyəti bağlılığı, qədim tarixi əlaqələr birləşdirir. Hər iki ölkəni qədim zamanlardan çox mühüm əhəmiyyətə malik tarixi İpək yolu birləşdirmişdir. Başlanğıcını Çindən götürən bu yol Azərbaycan üzərindən keçərək qoca Şərqi Avropa ilə bağlayan strateji əhəmiyyətli bir dəhliz idi. Tarixi ənənələrə və ticari əməkdaşlığa söykənən bu əlaqələr hazırkı dövrdə daha da genişlənmiş, çoxtərəfli əməkdaşlığa çevrilərək yeni məzmun kəsb etmişdir. İndi bu İpək yolu daha güclü strateji və qlobal əhəmiyyətə malik olmuşdur. Bütün bunlar öz yerində. Qeyd etməliyəm ki, hərbi sahədə əlaqələrimiz yaranmış, yeni müstəvi üzərində inkişaf etməyə başlamışdır. Təsadüfi deyil ki, ölkəmizin müstəqilliyini tanıyan ilk ölkələrdən biri məhz Çin Xalq Respublikası olmuşdur. Sonralar hər iki ölkə səfirliyinin nəzdində hərbi attaşe aparatı yaradılmış, digər əməkdaşlıq sahələri ilə yanaşı, hərbi əlaqələrimiz inkişaf edib genişlənmişdir. İndi bu əlaqələrimiz yüksək səviyyədədir. Müdafiə Nazirliyinin rəhbərliyi, Baş Qərargah rəisi, nazir müavinləri səviyyəsində nümayəndə heyətimiz bu ölkəyə səfərlər edib, hərbi əməkdaşlığın yeni aspektləri barədə işgüzar görüşlər keçirilib, səmərəli söhbətlər aparılıb. Bizim nə qədər zabitimiz onların həm hərbi akademiyasında, həm də digər tədris müəssisələrində kurslar keçib, müxtəlif ixtisaslara yiyələniblər. Bir sözlə, Çin Xalq Azadlıq Ordusu tərəfindən bizim Silahlı Qüvvələrimizə daim maddi-texniki təminat cəhətdən, humanitar yönümlü yardımlar göstərilib.

**- Cənab general, söhbətimizin bu yerində ənənəvi bir sualı verməyə bilmərəm: bugünkü Azərbaycan ordusunu necə səciyyələndirir, döyüş hazırlığı qabiliyyətini necə qiymətləndirirsiniz?**

- Bu gün Azərbaycan Silahlı Qüvvələri özünün bir əsrlik tarixini qeyd edir - olduqca qürurverici, iftixar hissi doğuran bir hadisədir. Lakin gəlin bir incələmə aparaq: tarix, statistika, xronologiya öz yerində; bu gün böyük təntənə ilə yubileyini qeyd etdiyimiz Silahli Qüvvələrimiz faktiki olaraq müstəqilliyimizin bərpasından sonra, daha dəqiqi, son 25 il ərzində formalaşıb inkişaf etmişdir. Doğrudur, Cümhuriyyət ordusundan bizə zəngin varislik ənənələri miras qalmışdır; hərbi quruculuq təcrübəsi, dövlət, ordu və xalqın birliyi, Silahlı Qüvvələrin təşkili və formalaşdırılmasına güclü dövlət dəstəyi, rütbəsindən, vəzifəsindən asılı olmayaraq hərbi qulluqçuların bütün səviyyələrdə öz torpağına, vətəninə sədaqətlə xidmət etmək, onun uğrunda canını, qanını belə fəda etməyə hər an hazır olmaq nümunəsi və s. və i.a... İbrət götürməli cəhətlər çoxdur və nə yaxşı ki, onlar var. Bir də güclü sərkərdəlik istedadı, məharəti və bacarığına malik olmaq amili. Fəxrlə deyə bilərik ki, bu xüsusiyyət həm Cümhuriyyət dövründə ordumuzun yaradılmasına rəhbərlik etmiş, xalqımızın yetirdiyi igid, cəsarətli hərbi xadimlərimizə xas olmuş, həm də sonrakı nəsil nümayəndələrinə. 1993-cü ilin iyun ayında təkrar hakimiyyətə gəlmiş ulu öndər, xalqımızın xilaskarı Heydər Əliyevin Ali Baş Komandan olaraq müstəqil dövlətimizin etibarlı müdafiəçisi - Azərbaycan Silahlı Qüvvələrinin yaradılması yolundakı cahanşümul xidmətləri onun bir sərkərdə kimi necə təkrarolunmaz xüsusiyyətlərə malik olduğunu əyani göstərdi. Nizami ordu quruculuğu istiqamətində aparılan möhtəşəm işlər ulu öndərimizin layiqli varisi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən hazırda uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, tam olmayan üç onillik ərzində Azərbaycan Silahlı Qüvvələri yüksək inkişaf yolu keçmiş, qüdrətli orduya çevrilmişdir. Heç də təsadüfi deyildir ki, regionda ən güclü ordu kimi qəbul olunan Azərbaycan Silahli Qüvvələrini beynəlxalq ekspertlər dünyanın ən qabaqcıl 50 ölkəsinin ordusu sırasına daxil edirlər. Bu faktın özü çox şeydən xəbər verir. Mənim fikrimə gəlincə isə tam cəsarətlə qeyd edə bilərəm ki, Azərbaycan ordusunun döyüş və taktiki hazırlığı, mənəvi-psixoloji durumu çox yüksək səviyyədədir. Ali Baş Komandan cənab İlham Əliyevin sözləri ilə desək, "...əgər ordumuz tam heyətlə Dağlıq Qarabağda hərbi əməliyyata başlasa, orada, elə Ermənistanın özündə də daşı daş üstə qoymayacaq."

**- Bu yerdə 2016-cı ilin Aprel döyüşlərini xatırlamamaq olmur...**

- Tamamilə haqlısınız. Həmin ilin aprel ayında baş verən döyüşlər 1994-cü ilin may ayında bağlanmış atəşkəs sazişindən keçən dövr ərzində cəbhə xəttində baş verən ən şiddətli insidentdir. Həmin ərəfədə ermənilər güclü təxribatlar törədirdilər. İri çaplı silahlarla yanaşı artilleriya silahlarından cəbhəyanı kəndlərimiz, yaşayış məntəqələrimiz, məscidlərimiz intensiv atəşə tutulur, mülki vətəndaşlarımız nişangaha alınırdı. Nəticədə iki soydaşımız həlak oldu, ondan artıq insan isə yaralandı... Odur ki, Ali Baş Komandanımızın əmrinə əsasən, ordumuzun şəxsi heyəti düşmənin cavabını vermək üçün əks-həmləyə keçdi - cəmi iki bölmə ilə, həm də iki istiqamətdə. Çox qısa bir zamanda 2.000 ha-dan artıq ərazi düşməndən təmizləndi, strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi, Talış kəndi ətrafındakı digər yüksəkliklər, o cümlədən Cocuq Mərcanlı kəndi geri qaytarıldı. İşğalçılar canlı qüvvə və texnika sarıdan əhəmiyyətli itkilər verdilər. PUA vasitəsilə komanda-qərargah məntəqəsi dağıdıldı.

Yaxud başqa bir misal. Elə bu günlərdə Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Əlahiddə Ümumqoşun Ordusunun bir bölməsi əks-həmləyə keçərək 11 min hektarlıq sahəni və 25 ildən çox işğal altında qalan Sədərək rayonunun Günnüt kəndini yağılardan təmizlədi. Beləliklə, Laçın dəhlizi də daxil olmaqla bir sıra strateji əhəmiyyətli yollar, zirvələr ordumuzun nəzarətinə keçdi. Sözsüz ki, bu torpaqlar Azərbaycan torpaqlarıdır. Bizim heç bir xalqın torpağında, dövlətin ərazisində gözümüz yoxdur. Düşmən nəticə çıxarmalı və nə qədər ki gec deyil, başa düşməlidir ki, biz işğal altında qalan digər torpaqlarımızı da geri qaytarmağa qadirik. Qoy onlar şübhə etməsinlər ki, qüdrətli ordumuz bir gün bütün şəxsi heyəti ilə (sıravi əsgərindən tutmuş ən yüksək rütbəli zabitinə, ehtiyatda olan generallarınadək) düşmən üzərinə yeriyəcək, torpaqlarımızın bütövlüyünü təmin edəcək. Bu yolda Ali Baş Komandanımız İlham Əliyevin ürəyimizdən xəbər verən sözləri hər birimizi ruhlandırır və xidməti fəaliyyətimizin başlıca mənasını ifadə edir:

"Azərbaycanın güclü ordusu var və istənilən döyüş tapşırığını hər an yerinə yetirməyə qadirdir... Ordumuz heç vaxt işğal faktı ilə barışmayacaq və torpaqlarımızı azad edərək öz sözünü deyəcək".

**- Bu gün Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi tamam olur. Yüksək rütbəli zabit, təcrübəli bir hərbçi kimi həmkarlarınıza arzunuz...**

- Müstəqilliyimizin, dövlətimizin və xalqımızın etibarlı təminatçısı olan ordumuzun bütün şəxsi heyətini təbrik edir, onlara Ali Baş Komandanımızın verəcəyi əmri layiqincə yerinə yetirməyi arzu edirəm. Mən heç də şübhə etmirəm ki, başımız üzərində ucalan üçrəngli bayrağımızı bir gün Dağlıq Qarabağda, Xankəndidə dalğalandıracağıq! Qoy bu inam, bu istək bir an da onların qəlbini tərk etməsin, kiçik bir qığılcımdan yaranan şölə kimi alovlanıb həsrətlə yolumuzu gözləyən torpaqlarımızı nura boyasın!

**Müsahibəni apardı:**
**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

## Ordu quruculuğu daim diqqət mərkəzindədir

Güclü, qüdrətli Azərbaycan ordusunun, Silahlı Qüvvələr gününün yaranmasının 100 ili tamam olur. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Hərbi nazir general Səməd bəy Mehmandarov, nazir müavini isə general Əliağa Şıxlinski təyin edildilər. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlik göstərdi, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Sovet hakimiyyəti dövründə də Rusiya imperiyasının azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi.

Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil etdi. Birinci Qarabağ müharibəsində igidliklərini sərgiləyənlər arasında bu məktəbin saysız-hesabsız qəhrəmanları olub. 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən silahlı qüvvələrin yaradılması haqqında qanun qəbul edildi, lakin o dövrün rəhbərliyi bu qərarın həyata keçməsi üçün heç bir iş görmürdü. Həmin illərdə birinci Qarabağ müharibəsi Azərbaycan üçün ən sarsıdıcı zərbə idi və bir tərəfdən də ölkədə yaranan hərbi vəziyyəti çətinləşdirirdi. 1993-cü ildə böyük öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonra ordunun tam quruculuğuna başlandı, bu dövrdən sonra ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Qısa zaman kəsiyində bir sıra yaşayış məntəqələri işğaldan azad edilərək ordumuzun əlinə keçdi. Azərbaycan əsgərinin qəhrəmanlıq nümunələrinin şahidi olan düşmən cəbhədə atəşkəsə razılıq verməli oldu. 1998-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Hazırda Azərbaycanın güclü ordusu Qafqazda ən böyük ordudur. Son zamanlar qazanılan uğurlar düşməni vahiməyə, bizi isə qələbəyə doğru aparır. Elə buna misal bildirmək istərdim ki, 2016-cı il aprelində dördgünlük müharibə hesab edilən günlərdə ordumuzun necə güclü olduğuna hər birimiz şahid olduq. Cəbrayılın Cocuq Mərcanlı və Lələtəpə yüksəkliyi dördgünlük müharibə zamanı Azərbaycan ordusu tərəfindən işğaldan azad edildi. May ayının sonlarında "Günnüt əməliyyatı" çərçivəsində Şərur rayonunun Günnüt kəndi, ətrafındakı yüksəkliklər, ardınca da Xunut dağı və Ağbulaq yüksəkliyi azad edildi. Bununla da Azərbaycan ordusu Günnüt üzərindən düşmənə sarsıdıcı zərbə vuraraq göstərdi ki, Azərbaycan tez və ya gec öz tarixi torpaqlarına qovuşacaq. Bu qələbə isə Azərbaycan ordusunun 100 illiyi ərəfəsində yaşanan ən böyük, ən güclü, ən qürurlu qələbə idi.

Son illər Azərbaycanda yaranan yüksəliş ordumuzdan da yan keçmir. Bu gün Azərbaycanın hərbi sənayesi qat-qat yüksəkdədir. Ölkə rəhbərinin ordumuzla bağlı gördüyü işlər bizi bunu tam əminliklə söyləməyə əsas verir. Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevin uğurla apardığı daxili xarici siyasəti sayəsində ordumuz bu gün öz gücünü bir daha düşmənə nümayiş etdirir. Son illərə nəzər salsaq görərik ki, ordumuzun hərbi bazası daim artmaqdadır, yeni texnikaların alınması, hərbi sahədə qazanılan uğurlar göz önündədir.

**Aqil ACALOV,**
**Yeni Azərbaycan Partiyasının üzvü,**
**iqtisadiyyat üzrə fəlsəfə doktoru,**
**Avrasiya Kombat Ciu-Citsu Federasiyasının prezidenti.**

## MASALLIDA DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI QEYD OLUNUB



**Masallı rayonunda 224 nəfər dövlət qulluqçusu çalışır. Onlar rayonun sosial-iqtisadi inkişafında, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərində, rayonun mədəni həyatında var qüvvələrini əsirgəmirlər. Dövlət qulluqçuları peşə bayramlarını yeni uğurlarla, yüksək əhval-ruhiyyə içində qeyd ediblər.**

Tədbir iştirakçıları əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, ulu öndərin parlaq xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər.

Bayram tədbiri Masallı Rayon İcra Hakimiyyətinin iclas zalında davam etdirilib. Masallı RİH başçısı Rafil Hüseynov dövlət qulluqçularını peşə bayramı günü münasibəti ilə təbrik edərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra dövlət idarəçiliyinin və dövlət qulluğunun təkmilləşdirilməsi ilə bağlı ardıcıl, uğurlu islahatların aparıldığını, "Dövlət qulluğu haqqında" Qanunun qəbul edildiyini, ölkədə idarəetmə sisteminin, o cümlədən dövlət qulluğunun normativ hüquqi bazasının yaradıldığını bildirib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli sərəncamı ilə hər il iyun ayının 23-nün Dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd edildiyini diqqətə çatdıran icra başçısı rayonda dövlət qulluğunda çalışanların ölkə rəhbərinin ətrafında sıx birləşdiklərini, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirdiklərini söyləyib. Dövlət qulluğu veteranlarından Ələşrəf Niftiyevin III dərəcəli "Vətənə xidmətə görə" ordeni, Baba Həsənovun "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunduğunu vurğulayan icra başçısı peşə bayramı münasibətilə hamıya səmimi, xoş arzularını çatdırıb.

Sonra Masallı Rayon Təhsil Şöbəsinin müdiri Tariyel Əkbərovun dövlət qulluğu haqqında məruzəsi dinlənilib. Rayon polis şöbəsinin rəisi, polis polkovniki Habil Əmiraslanov, Türkoba kənd inzibati ərazi dairəsi üzrə icra nümayəndəsi Leyla Əzizova, Masallı regional dövlət kollecinin müəllimi Baba Həsənov, Masallı regional "ASAN xidmət" mərkəzinin vətəndaşların qəbulu işinin təşkili sektorunun aparıcı məsləhətçisi Telman Həsənov, rayon ağsaqqallar şurasının sədri Ələşrəf Niftiyev tədbirdə çıxış etmişlər.

Tədbirdə bir qrup dövlət qulluqçusuna Masallı Rayon İcra Hakimiyyəti başçısının və rayon ağsaqqallar şurasının Fəxri fərmanları və qiymətli hədiyyələr təqdim edilib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Diabetə birlikdə qalib gələk





**Orqanizmin sağlamlığını qorumaq, hər hansı bir xəstəliyin aradan qaldırılması üçün bu xəstəliklər haqqında az da olsa elmi biliklərə malik olmaq hər bir insan üçün olduqca vacibdir. Əks halda hansısa bir xəstəlik böyük fəsadlarla nəticələnə və insan həyatına son qoya bilər.**

Bu baxımdan 2000-ci ildə təsis olunmuş Beynəlxalq Diabet Federasiyasının üzvü olan Azərbaycan Diabet Liqası diabetli xəstələrin həyat keyfiyyətini yüksəltmək, hüquqlarının müdafiəsi və əhalinin sağlamlığının mühafizəsində yaxından iştirak etmək missiyasını daşıyır. Yarandığı gündən tibbi, hüquqi, sosial, humanitar, fiziki və psixoloji yardım proqramları çərçivəsində ilk dəfə Azərbaycanda tətbiq edilən 300-dən çox müxtəlif layihələr, tədbirlər və aksiyalar həyata keçirən təşkilat, eyni zamanda, dövlət strukturlarının bu istiqamətdə gördüyü işlərə də dəstək olur. Azərbaycanın ictimai həyatında fəal iştirak edən ADL-in 3000-dən çox üzvü, 7 regionda nümayəndəliyi var. Təşkilat Milli QHT Forumun, Uşaq hüquqları üzrə QHT Alyansın, Azərbaycan Respublikasının Gənclər Təşkilatının Milli Şurasının, Əlil Təşkilatlar İttifaqının idarə heyətinin üzvü, eyni zamanda, Ombudsman aparatında əlillik üzrə sosial proqramların ekspertidir. ADL-də mütəmadi olaraq tibbi proqram çərçivəsində şəkərli diabetlə bağlı müxtəlif mövzularda elmi-praktik seminarlar, konfranslar təşkil edilir, şəkərli diabet xəstəliyinin terapevtik təlimi proqramı əsasında tibbi-maarifləndirici nəşrlər dərc edilir, əhali arasında şəkərli diabetin skrininqi, maarifləndirmə işi aparılır, yoxsul, kimsəsiz üzvlərə pulsuz tibbi xidmətlər təşkil edilir. Hüquqi, sosial və humanitar yardım proqramı çərçivəsində bu günə qədər "Qaynar xətt" telefon əlaqəsi təşkil edilmiş, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı" haqqında qanun layihəsi, "Şəkərli diabet üzrə Dövlət proqramları"nın icrası ilə əlaqədar monitorinq işləri aparılmışdır. Bunlarla yanaşı, gənclərin cəmiyyətə inteqrasiyasını sürətləndirmək məqsədilə onların pulsuz və ya böyük güzəştlərlə peşə kurslarında iştirakı təşkil edilmiş, işlə təmin olunmalarına köməklik göstərilmişdir. Fiziki və psixoloji yardım proqramı çərçivəsində isə şəkərli diabetlə xəstə olan gənclər üçün xüsusi yay düşərgələri, yaşlılar üçün istirahətlər təşkil edilmişdir. Təşkilat öz fəaliyyəti dövründə Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Ombudsman aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də müxtəlif farmokoloji şirkətlər və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.



Bu günlərdə Yasamal Rayon İcra Hakimiyyəti və ADL-in birgə təşkilatçılığı ilə Yasamal parkında "Diabetə birlikdə qalib gələk" adlı idman yürüşü keçirildi. Səhər saatlarında ADL-in həkim briqadası tərəfindən parka toplanan insanlarda qanda qlükozanın səviyyəsi müayinə olundu, onlara şəkərli diabet xəstəliyi haqqında maarifləndirici bilgilər verildi. Tədbiri **ADL-in sədri, endokrinoloq Yeganə Sultanova** açdı. O, şəkərli diabet xəstəliyi, onunla mübarizə yolları və bu mübarizədə ADL-in fəaliyyətindən danışaraq qeyd etdi ki, ADL-in üzvləri olan diabetli xəstələr, xüsusilə uşaqlar hər zaman Birinci vitse-prezident, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunub. Azərbaycan Diabet Liqası İB 2018-ci ildən təsis etdiyi "Diabetə birlikdə qalib gələk" adlı mükafatını ilk olaraq böyük minnətdarlıq hissi ilə Birinci vitse-prezident Mehriban Əliyevaya ayırıb. Biz, ADL olaraq bundan sonrakı fəaliyyətimizdə də insanların sağlamlığının mühafizəsi istiqamətində daha genişmiqyaslı layihələr həyata keçirəcəyik.

Layihənin koordinatoru, 15 saylı şəhər poliklinikasının endokrinoloqu Gülnar Qafarova isə hər bir insanın, xüsusilə də diabetli xəstələrin aktiv həyat tərzi keçirmələrinin, düzgün qidalanmalarının vacibliyindən danışaraq ölkəmizdə təxminən 243 226 nəfərin diabet diaqnozu ilə rəsmi qeydiyyatdan keçdiyini nəzərə çatdıraraq, xəstəliyin geniş yayılmasının ağır fəsadlara, erkən əlilliyə, böyük iqtisadi gərginliyə, insan resursunun itkisinə gətirib çıxardığından söz açdı. O, öz çıxışında BDF və ÜST-nın statistik məlumatlarına görə fiziki aktivlik və düzgün qidalanmanın 70 faizədək şəkərli diabet tip 2-nin qarşısını aldığını da diqqətə çatdırdı.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra yürüşə start verildi. Yasamal parkı ərazisində yürüşçülərin bir saatlıq yürüşündən sonra sənət ustaları tədbir iştirakçılarının qarşısında konsert proqramı ilə çıxış etdilər.

Tədbirin sonunda Yasamal Rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov çıxış edərək belə bir maarifləndirici tədbir təşkil etdikləri üçün Azərbaycan Diabet Liqasına təşəkkür etdi və rayon rəhbərliyinin hər zaman bu kimi tədbirlərə kömək və dəstək göstərməyə hazır olduğunu bildirdi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# HÜNƏR MEYDANIDIR MİL-MUĞAN DÜZÜ

2010-cu ilin isti aylarında ana təbiət bölgələrdə yaşayan insanları sınağa çəkdi. Aramsız yağan yağışlar nəticəsində Kür və Araz çaylarına suyun miqdarı görünməmiş dərəcədə artdı, çox yerdə bəndlər davam gətirmədi, evləri, əkin sahələrini su basdı. Təbii fəlakətin miqyasının genişlənməməsi və gələcəkdə bu kimi halların qarşısının vaxtında alınması üçün ölkə başçısı cənab İlham Əliyevin sədrliyi ilə müşavirə keçirildi. Müşavirə bir daha təsdiq etdi ki, Azərbaycan dövləti həmişə olduğu kimi, həmin günlərdə də öz vətəndaşlarının yanında olmaqla insanların üzləşdikləri problemlərin həlli istiqamətində mükəmməl tədbirlər planı həyata keçirir.

Daşqının nəticələrini aradan qaldırmaq üçün Bəhrəmtəpə



Hidroqovşağında həmin il may ayının 21-də Operativ Qərargah yaradıldı. Məqsəd Kür çayında olan 2500 kubmetr suyun səviyyəsinin aşağı salınmasını təmin etmək idi. Bu məqsədlə Çaxırlı və Qızılkənd kəndləri ərazisində Arazdan yeni qolun ayrılması gerçəkləşdirildi. Su həmin qol vasitəsilə boş ərazilərə axıdıldı.

İndi həmin tarixi və həyəcanlı günlərdən 8 il keçib, ancaq təbii fəlakət nəticəsində Araz çayından açılan yeni qol bu illər ərzində həmin əraziyə yeni həyat bəxş edib. Yüzillər boyunca su üzü görməyən, quraqlıqdan əziyyət çəkən ucsuz-bucaqsız torpaqlara həyat nəşəsi gəlib.

Burada ən müasir tələblərə uyğun olaraq tikinti-quraşdırma işləri aparılıb, körpülər, bəndlər salınıb, ən müasir suötürücü qurğular quraşdırılıb. İmişli-Saatlı-Biləsuvar rayonlarının əraziləri hesabına 53 min hektar qışlaq sahəsinin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə daxil edilmişdir. Əvvəllər saniyədə 23 kubmetr sukeçirici qabiliyyəti olan Orta Muğan kanalı genişləndirilmiş və göstərici 35 kubmetr/saniyəyə çatdırılmışdır.

Bununla kifayətlənməyən iş icraçıları 2018-ci ilin yanvarından etibarən həmin kanalın suya davamlılığını saniyədə 45 kubmetrə çatdırmışlar. Hazırda tikintidə son tamamlama işləri aparılır. İyun ayının sonuna qədər kanalın istismara veriləcəyi planlaşdırılıb. Qısa vaxt ərzində əsrlərdən bəri susuzluq və quraqlıq ucbatından susuz dodaq kimi çatlayan, cadar-cadar olan çöllərə yeni həyat və yaşam veriləcək. Burada yeni və məhsuldar həyat başlayacaq. Ölkə rəhbərinin regionların inkişaf etdirilməsi sahəsində apardığı məqsədyönlü siyasətin nəticəsi olaraq bu torpaqlarda aqrar islahatların aparılması sürətlənəcək, bol məhsul əldə olunacaq, iqtisadiyyatın yüksəlişi təmin ediləcək. Hədəf ölkədə, xüsusilə bölgələrdə aqrar sahənin daha da inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması, çoxçeşidli məhsullara nail olmaqdır.

Hazırda isə ərazidə sürətli tikinti-quraşdırma işləri aparılır. Sabirabad rayonunda yerləşən Mil-Muğan Törəmə Müəssisəsinin rəhbərliyi tikinti işlərinin yaxın günlərdə yüksək səviyyədə başa çatdırılması üçün səy və bacarığını əsirgəmir. İdarənin əməkdaşları yaxşı bilirlər ki, işləri ilə bərəkətli Mil-Muğan tarixi üçün yeni və parlaq səhifə açırlar. Tezliklə bu geniş çöldən xeyir-bərəkət ətri gələcək, qadir insan əllərinin sayəsində burada gül-gülü, çiçək-çiçəyi çağıracaq. Mil-Muğan düzünün bu sahəsi də, el arasında deyildiyi kimi, "Biri üç eləyəcək".

**Səməd İSMAYILOV,**
**İmişlidə çıxan "Xalq sözü" qəzetinin baş redaktoru.**

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 26.3-cü maddəsinə əsasən hazırlanmışdır və 2017-ci il iyulun 1-dək "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq təyin edilmiş və ödənilməsi davam edən əmək pensiyalarına qulluq stajına görə əlavələrin Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilmə və sonrakı artımlar nəzərə alınmaqla yenidən hesablanması qaydasını müəyyən edir.

1.2. Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərin qulluq stajına görə əmək pensiyasına əlavənin məbləği əmək pensiyalarının sığorta hissəsi indeksləşdirildikdə və ya həmin şəxslərin işləmiş olduqları vəzifələr üzrə aylıq əməkhaqqı (vəzifə maaşı, dövlət məvacibi, təminat xərcliyi - bundan sonra əməkhaqqı) artırıldıqda yenidən hesablanır.

## 2. İndeksləşdirilmə və sonrakı artımlar nəzərə alınmaqla yenidən hesablanma

2.1. Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasının sığorta hissəsi Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirildikdə və ya yenidən hesablandıqda, qulluq stajına görə əmək pensiyasına əlavələrin məbləği həmin artımlar qədər azaldılmaqla yenidən hesablanır.

2.2. Qanunun 20-ci maddəsində göstərilən şəxslərin tutmuş olduqları vəzifələr üzrə aylıq əməkhaqqı sonradan artırıldıqda, bu artımlar nəzərə alınmaqla qulluq stajına görə əmək pensiyasına əlavələr aşağıdakı qaydada yenidən hesablanır:

2.2.1. Qanunun 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrində nəzərdə tutulmuş şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavələr, bu əlavələrin təyin edilməsi üçün əsas götürülmüş aidiyyəti sahədə səlahiyyət müddətində tam fəaliyyət dövrünə görə yenidən hesablanır.

2.2.2. Bu Qaydanın 2.2.1-ci yarımbəndində göstərilən şəxslərin səlahiyyət müddətində fəaliyyət dövrü səlahiyyət müddətindən az (yarısından az, yarısı qədər və ya yarısından çox, lakin tam olmadıqda) olduqda onların tutmuş olduqları vəzifələr üzrə əməkhaqqındakı artım əsas götürülməklə pensiyanın artım məbləği fəaliyyət dövrünə uyğun olaraq (tam fəaliyyət dövrünə görə 80 faiz olmaqla) aşağıdakı düstura əsasən hesablanır və həmin şəxslərin 1 iyul 2017-ci il tarixinədək hesablanmış pensiya məbləğinin üzərinə əlavə olunur:

PMA = ƏHA x (FD x 80% / SM), burada:

PMA - pensiyanın artım məbləği;

ƏHA - orta aylıq əməkhaqqının artım məbləği;

FD - səlahiyyət müddətində fəaliyyət dövrü (il tam olmadıqda iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla);

SM - səlahiyyət müddətidir.

2.2.3. Qanunun 20.1.4-cü, 20.1.5-ci, 20.1.5-1-ci, 20.1.7-ci, 20.1.9-cu, 20.1.14-cü, 20.1.18-ci və 20.1.20-ci maddələrində nəzərdə tutulmuş şəxslərin qulluq dövrü 5 il və daha çox, lakin 15 ildən az olduqda (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla), onların pensiyalarına qulluq stajına görə əlavə, Qanunun 20-ci maddəsinə uyğun olaraq bu əlavəni almaq hüququ verən minimum qulluq stajına (15 il) əsasən götürülür. Bu zaman minimum qulluq stajına görə müəyyən edilmiş orta aylıq əməkhaqqının 50 faizinin 15 ilə nisbətinin faktiki qulluq dövrünün aylarının sayına hasili nəticəsində müəyyən edilən faiz dərəcəsi (FD x 50% / 15) orta aylıq əməkhaqqının artım məbləğinə vurulur. Bu yarımbənddə göstərilən şəxslərin pensiyasına qulluq stajına görə əlavə aşağıdakı düstura əsasən yenidən hesablanır və həmin şəxslərin 1 iyul 2017-ci il tarixinədək hesablanmış pensiya məbləğinin üzərinə əlavə olunur:

PMA = ƏHA x (FD x 50% / 15), burada:

PMA - pensiyanın artım məbləği;

ƏHA - orta aylıq əməkhaqqının artım məbləği;

FD - səlahiyyət müddətində fəaliyyət dövrüdür.

2.3. Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş əlavələrin təyin edilməsi üçün əsas götürülmüş aidiyyəti sahədə qulluq stajı 15 il və daha çox olan şəxslərin pensiyalarına əlavələr əməkhaqqındakı artım məbləği nəzərə alınmaqla, 15 il qulluq etmiş şəxslərə - orta aylıq əməkhaqqının artım məbləğinin 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının artım məbləğinin 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının artım məbləğinin 80 faizi miqdarından çox olmamaq şərtilə faktiki qulluq dövrünün aylarına uyğun olaraq hesablanır və həmin şəxslərin 1 iyul 2017-ci il tarixinədək hesablanmış pensiya məbləğinin üzərinə əlavə olunur.

2.4. Qanunun 20.1.2-ci, 20.1.4-1-ci, 20.1.5-2-ci, 20.1.8-ci, 20.1.10-cu, 20.1.15-ci, 20.1.17-ci, 20.1.19-cu və 20.1.21-ci maddələrində nəzərdə tutulmuş şəxslərin əmək pensiyalarına qulluq stajına görə əlavələr aidiyyəti üzrə bu Qaydanın 2.2-ci və 2.3-cü bəndlərində nəzərdə tutulmuş qaydada yenidən hesablanır.

2.5. Qanunun 20.1.11-ci maddəsində nəzərdə tutulmuş şəxslər üzrə (Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Aparatında, onun strukturuna daxil olan qurumlarda və strukturuna daxil olmayan qurumlarda, həmçinin tabeliyində olan qurumlarda xidmət edən şəxslər istisna olmaqla) həmin Qanunun 20.14.1-ci və 20.14.4-cü maddələrinə əsasən hesablanmış (1 iyul 2017-ci il tarixinədək Qanunun qüvvədə olmuş normaları üzrə) əmək pensiyaları təminat xərcliyinin sonrakı artımları zamanı, təminat xərcliyindəki faktiki artımın məbləği Qanunun müvafiq maddələrində nəzərdə tutulan qaydada 20 ildən yuxarı hərbi xidmətin güzəştli sayılan hissəsi ilə birlikdə hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün müvafiq təminat xərcliyinin artım məbləğinin 2 faizi miqdarında əlavə olunmaqla hesablanır. Bu məbləğ təminat xərcliyindəki artımadək hesablanmış pensiyanın üzərinə əlavə olunaraq əmək pensiyasının yeni məbləği müəyyənləşdirilir.

2.6. Qanunun 20.1.11-ci, 20.1.12-ci və 20.1.13-cü maddələrində nəzərdə tutulmuş şəxslər üzrə (bu Qaydanın 2.5-ci bəndində göstərilən - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemində xidmət etməyən şəxslər istisna olmaqla) qulluq stajına görə əlavələrin məbləği Qanunun 29.2-ci maddəsində nəzərdə tutulan qaydada yenidən hesablanır.

## 3. Yekun müddəalar

Bu Qaydaya uyğun olaraq qulluq stajına görə əlavə alan şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavənin yenidən hesablanması Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təmin edilir.

# "Aqrar mütəxəssis" qəzetinin 85 illiyi

Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) Gəncənin ən görkəmli və tarixi sıradan qədim binalardan birində yerləşmiş İnzibati korpusunda vaxtilə — 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının Milli Şurası bir araya gəlmişdir. 90 ilə yaxın fəaliyyəti dövründə bu təhsil müəssisəsini 70 mindən çox məzun bitirib. Onların içərisində 33 akademik, görkəmli ictimai-siyasi xadimlər olmuşdur. Hazırda universitetdə mindən artıq tələbə təhsil alır, 500 nəfər müəllim heyəti çalışır.

Bu il universitet qəzeti "Aqrar mütəxəssis"in 85 yaşı tamam olur. İkiqat əlamətdardır ki, qəzetin doğum günü Cümhuriyyətin 100 illiyi ilə üst-üstə düşür. Məlum olduğu kimi, ilk milli qəzetimiz məhz aqrar sahənin görkəmli mütəxəssisi Həsən bəy Zərdabinin təşəbbüsü və əməli fəaliyyəti ilə bağlıdır. "Əkinçi" işıq üzü görən vaxtlarda Azərbaycanda yüksək ixtisaslı kənd təsərrüfatı kadrları hazırlayan təhsil ocağı yox idi. 1929-cu ildə təməli qoyulan və 1931-ci ildə Gəncəyə köçürülən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun qarşısında mühüm vəzifələr dururdu.

1933-cü ildə institutun "Kadr uğrunda" (hazırkı "Aqrar mütəxəssis") qəzeti yaradıldı. Bu o demək idi ki, H.B.Zərdabinin yaratdığı "Əkinçi"nin davamçısına və Azərbaycan kəndlilərinin səbirsizliklə gözlədikləri mətbu nəşrə ehtiyac duyulurdu. Beləliklə, "Əkinçi"nin mütərəqqi ənənələrini öyrənərək inkişaf etdirən "Kadr uğrunda" qəzeti ilk addımlarını atmağa başladı. Həmin illərdə milli jurnalist kadrları çatışmadığından qəzetə təhsil müəssisəsinin professor-müəllim heyəti redaktorluq edirdi. Müxtəlif dövrlərdə professorlardan Hacı Hacıyev, Rübail Allahverdiyev, Eynəddin Məmmədov, ədəbiyyatçı Ə.Həsənova, dosent C.Əkbərov, ədəbiyyatşünas A.Hüseynov, sonralar Y.Qurbanov, T.Azəri baş redaktor olmuşlar.

O dövrdə milli ideologiyanın formalaşmasında əsas informasiya vasitəsi kimi qəzet mühüm işlər görürdü. İlk növbədə, doğma ali təhsil ocağının professor-müəllim heyətinin, tələbə və oxucuların sevimlisinə və tribunasına çevrilmişdi. Görkəmli şəxslərin qəzetin səhifələrində çıxış etməsi isə mövcud reallıqlardan irəli gəlirdi. Qəzetlə yaxından əməkdaşlıq etmiş tarixi şəxsiyyətlərdən — Azərbaycan Dövlət Himninin müəllifi, şair Əhməd Cavad 1931-1934-cü illərdə universitetimizin dillər kafedrasına rəhbərlik etmiş, dilçilik sahəsində ilk professor olmuşdur. Akademiklərdən Həsən Əliyev, Məmmədtağı Qəniyev, İmam Mustafayev, Validə Tutayuk, İlyas Abdullayev, Firuz Məlikov, Ağaxan Ağabəyli, Cəbrayıl Hüseynov, Həsən Seyidov, Rəhim Hüseynov, Məmmədtağı Cəfərov, Siddiqə Məmmədova və başqaları "Aqrar mütəxəssis" qəzetinin fəal müəllifləri kimi yadda qalmışlar.

1988-ci ildən başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində də Aqrar Universitetin müəllimləri və tələbələri düşmənə qarşı barışmaz mübarizədə fərqlənmişlər. Onlardan İxtiyar Qasımov, Məmməd Həsənov və Ənvər Arazov (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər. Şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımız haqqında "Aqrar mütəxəssis" qəzeti maraqlı və yaddaqalan materiallar dərc etmişdir.

Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində qəzetimizin rolu əvəzsizdir. 2016-cı ilin aprel hadisələri zamanı tələbə-gənclərin təşəbbüsü ilə "Sənə zəfərlər yaraşır, Azərbaycan Ordusu" sərlövhəsi altında tələbələrimizin vətənpərvər çıxışları dərc edildi. Bu bir çağırış idi. Redaksiyamıza çoxsaylı zənglər daxil olurdu. Yüzlərlə tələbəmiz ordumuzun sıralarında əsgərlərimizlə yanaşı olmaq arzusunu bildirirdilər. Tələbə-gənclərdə erməni işğalçılarına qarşı nifrət dolu çıxışlarda döyüş əhval-ruhiyyəsi çox yüksək idi. Həmin vaxtlarda qəzetin oxu-




cuları ikiqat artmışdı.

Bu gün "Aqrar mütəxəssis" qəzeti ADAU-nun həm respublikamızda, həm də beynəlxalq aləmdə qazandığı uğurları müntəzəm işıqlandırır. Qəzetin əsas fəaliyyət istiqamətində ulu öndər Heydər Əliyevin aqrar təhsil sisteminə göstərdiyi qayğı mühüm yer tutur. 1973-cü ildə Kənd Təsərrüfatı Akademiyasında (indiki ADAU) kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə ümummilli lider Heydər Əliyev AKP MK-nın bürosunda xüsusi məsələ müzakirə etmişdir. Qəbul olunan proqrama uyğun olaraq, şəhərimizin "Gülüstan" qəsəbəsi ərazisində tələbə şəhərciyi salmaq üçün geniş torpaq sahəsi ayrılmışdır.

1980-cil il dekabrın 16-da universitetin 50 illik yubileyində şəxsən iştirak edən Heydər Əliyev SSRİ Ali Sovetinin qərarı ilə instituta verilən "Şərəf nişanı" ordenini ölkə rəhbəriyi adından təqdim etmiş və bu ali mükafatı təhsil ocağının bayrağına sancmışdır. Həmin tarixi səfər və Heydər Əliyevin Gəncədə uzunömürlülük rəmzi olaraq çinar ağacı əkməsi mərasimi "Aqrar mütəxəssis" qəzetinin səhifələrində geniş işıqlandırılmışdır.

Bu gün özünün 85-ci ilini yaşayan, "Əkinçi" qəzetinin layiqli varisi olan "Aqrar mütəxəssis" qəzetinin yaradıcı heyəti, tələbə müxbirləri gələcəkdə də qəzetçilik ənənələrini lazımınca davam etdirərək, universitet həyatını və respublikamızda baş verən əlamətdar ictimai-siyasi hadisələri yüksək səviyyədə işıqlandırmaq əzmindədirlər.

**Maarif RZAYEV,**
**ADAU-nun "Aqrar mütəxəssis" qəzetinin baş redaktoru.**

# "AzerGold" QSC yeni texnologiyaları nəzərdən keçirir

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC-nin) nümayəndə heyətinin Qazaxıstan Respublikasına işgüzar səfəri 23 iyunda başa çatıb. "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti 20-22 iyun tarixlərində Şərqi Qazaxıstanda yerləşən mədən və metallurgiya zavodları ilə tanış olub. "Kazzinc" şirkətinin rəhbərliyi ilə Ust-Kameneqorsk şəhərində təşkil olunan görüşdə kadr hazırlığı, layihələrin idarə olunması, təcrübə mübadiləsinin aparılması və əməkdaşlıq haqqında memorandumun imzalanması perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Daha sonra nümayəndə heyəti metallurgiya kompleksi, o cümlədən sink saflaşdırma, qurğuşunəritmə və misəritmə zavodlarının iqtisadi imkanları, istehsalat gücü və logistik fəaliyyəti haqqında ətraflı məlumat əldə edib.**




Ridder şəhərinə təşkil olunan səfər çərçivəsində QSC-nin nümayəndələri "Kazzinc" şirkətinə məxsus Ridder metallurgiya kompleksində sink konsentratının emalı və qaynayan qatda bişirmə texnologiyası, Ridder Dolinnı mədənində möhkəmləndirmə olmadan mədən çıxarma üsulu, Tişinski və Sokolnıy mədənlərində isə dağ-mədən işlərində relssiz maşından istifadə edilməsi və horizontlar üzrə yeraltı mədən çıxarma üsulu ətrafında geniş fikir mübadiləsi aparıb.

Nümayəndə heyətinin məhsuldar səfəri Semey şəhərində davam edib. "AzerGold" QSC-nin təmsilçiləri bu şəhərdə yerləşən, "Nordgold" şirkətinə məxsus dünyanın ən böyük mədənlərindən biri - Suzdalın fəaliyyəti ilə yaxından tanış olub. Mədəndə tətbiq olunan innovativ BIOX texnologiyası "AzerGold" QSC-nin nümayəndə heyətinin diqqətini cəlb edib, onun tətbiqi haqqında ətraflı məlumat əldə edilib.

Qeyd edək ki, səfər zamanı "AzerGold" QSC-nin fəaliyyəti, qısa müddət ərzində ixracda əldə etdiyi nailiyyətlər, tətbiq etdiyi texnologiyalar Qazaxıstan şirkətlərinin böyük marağına səbəb olub. Bununla yanaşı, Qazaxıstan şirkətlərinin Azərbaycana səfəri və "AzerGold" QSC-nin fəaliyyəti ilə yaxından tanış olmaları haqqında ilkin razılıq əldə olunub. ■

# Azərbaycanın müdafiə sənayesi naziri Yavər Camalov son mənzilə yola salınıb





**Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Yavər Camalov iyunun 24-də son mənzilə yola salınıb.**

AZƏRTAC xəbər verir ki, mərhumla vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərhumun cənazəsi yaşadığı evdən götürülüb və Şüvəlan qəsəbəsindəki qəbiristanlıqda dəfn olunub.

Məzarın önünə Azərbaycan Respublikası Prezidentinin və müxtəlif hökumət təşkilatlarının kollektivləri adından əklillər qoyulmuşdu.

Dəfn mərasimində çıxış edən Baş nazirin müavini Hacıbala Abutalıbov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ailəsinin adından mərhumun doğmalarına başsağlığı verdi.

Baş nazirin müavini bildirdi ki, Yavər Camalov tutduğu vəzifələrdən asılı olmayaraq çalışdığı bütün sahələrdə daim işgüzarlıq, peşəkarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirib. Yüksək tələbkarlığı, dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona böyük hörmət qazandırıb. O, uzun illər boyu Azərbaycanın neft sənayesinin inkişafı naminə bilik və bacarığını əsirgəmədən, var gücünü sərf edərək ölkə iqtisadiyyatının yüksəlişinə töhfələr verib.

Mərhumun oğlu Elşən Camalov atasının xatirəsinə göstərilən diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür etdi. O, dəfn mərasimində iştirak edənlərə də ailəsi adından minnətdarlığını bildirdi.

Qeyd edək ki, Yavər Camalov 1949-cu il oktyabrın 17-də Sabirabad rayonunda anadan olub. 1972-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. Həmin il "Siyəzənneft" Neft və Qaz Çıxarma İdarəsinin operatoru, 1973-1995-ci illərdə "Şirvanneft" Neft və Qaz Çıxarma İdarəsində müxtəlif vəzifələrdə işləyib. 1995-2003-cü illərdə ARDNŞ-in "Quruda Neft və Qaz Çıxarma" İstehsalat Birliyinin, 2003-2006-cı illərdə "Azneft" İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 mart tarixli Sərəncamı ilə müdafiə sənayesi naziri təyin edilən Yavər Camalov ömrünün sonunadək bu vəzifədə işləyib.

Ölkəmizin müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin uğurla həyata keçirilməsində Yavər Camalovun özünəməxsus xidmətləri var. Bu vəzifədə çalışdığı müddətdə nazirliyin müəssisələrində çox sayda yeni istehsal sahələri yaradılmaqla yanaşı, qurumun müasir tələblərə uyğun səmərəli fəaliyyəti nəticəsində ölkədə hərbi təyinatlı məhsulların çeşidi artıb və keyfiyyəti yüksəlib, müdafiə sənayesinin idxaldan asılılığının aradan qaldırılması istiqamətində nailiyyətlər əldə olunub və ümumilikdə Azərbaycan Ordusunun müasir silah növləri ilə təmin edilməsi üçün zəruri addımlar atılıb.

Yavər Camalovun ölkənin iqtisadi inkişafındakı xidmətləri daim yüksək qiymətləndirilib. O, "Əməkdar mühəndis" fəxri adına layiq görülüb və müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilib.

Allah rəhmət eləsin!

**AZƏRTAC**

## "AQROLİZİNQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİN AÇIQ TENDER ELANI

**Tender 1 (bir) Lot üzrə keçirilir.**
**Tenderin predmeti:**

**Lot-1** - "Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Beynəlxalq Audit Standartları əsasında "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin maliyyə-təsərrüfat fəaliyyətinin 2017-ci il və 2018-ci ilin birinci yarımillik dövrləri üzrə auditinin aparılması məqsədi ilə kənar auditor xidmətinin satınalınması"

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı sürətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, müqavilənin yerinə yetirilmə müddəti, təşkilatın hesabat və rəylərinin mötəbərliyinin tanınması, layihəyə cəlb ediləcək ixtisaslı kadrlar və şərtlər toplusunda digər qiymətləndirmə üçün tələb olunan tələblərə uyğunluq.

Maraqlananlar tenderlə əlaqədar əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Abdullayeva Vəfa Hikmət qızı**
**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi, 12**
**Tel.:/Faks: 425-66-94; mobil: +99451 255-92-40; E-mail: a.vefa@agrolizing.gov.az**

Tenderin əsas şərtlər toplusu Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur. Zərurət olduqda beynəlxalq ticarətdə istifadə edilən dillərin birinə tərcümə olunacaqdır. Maraqlanan fiziki və hüquqi şəxslər əsas şərtlər toplusunu Lot 1 üzrə 300.0 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürə bilərlər:

*Təşkilat: "Aqrolizinq" ASC*
*VÖEN: 1700382471; H/h: AZN AZ91AİİB38070019443500231102*
*Kapital Bank Mərkəz filialı; VÖEN: 9900003611; Kod: 200026;*
*M/h: AZ37NABZ01350100000000001944;*
*S.W.İ.F.T.: AİİBAZ2X*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün 26 iyul 2018-ci il tarixinə kimi aşağıdakı sənədləri (tender təklifi və 1% bank təminatı istisna olmaqla) təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsi barədə sənəd;*
*- auditor fəaliyyətinə xüsusi razılıq (lisenziya);*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının vergilər üzrə borcunun olmaması barədə vergi orqanları tərəfindən təsdiq olunmuş sənəd;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə, rekvizitləri və maddi-texniki bazası barədə məlumat.*

Bundan əlavə Tender təklifi və bank təminatı möhürlənmiş bağlı zərflərdə 09 avqust 2018-ci il, saat 1700-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 1% həcmində bank təminatı verilməlidir. Bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır.

Bank təminatını və tender təklifini bağlı zərfdə təqdim etməyən iddiaçıların təklifi etibarsız sayılır.

Bağlı zərflər 10 avqust 2018-ci il tarixdə saat 15:00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqrolizinq" ASC-nin konfrans zalında açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

## BİLDİRİŞ

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin təchizat bazalarında mal-material qalıqlarının qiymətləndirilməsi və inventarizasiya aparılmasının satınalınması məqsədi ilə kotirovka sorğusu keçirir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.*

Əlavə məlumat üçün əlaqə telefonu: (012) 425-66-94.

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 02.07.2018-ci il saat 17:00.

**TENDER KOMİSSİYASI.**

# "Azərişıq" ASC "facebook" və "instagram" vasitəsilə xidmətlərini daha da asanlaşdıracaq

Abonentlərinə göstərilən xidmətləri daha da asanlaşdırmaq, məmur-vətəndaş kontaktını minimuma endirmək, süründürməçilik kimi hallara yol verməmək, istehlakçıların hüquqlarını bilməsini təmin etmək, maarifləndirmə, məlumatlandırma və ASAN "xidmət" vasitəsilə həyata keçirilən işlərin operativliyi məqsədi ilə "Azərişıq" ASC tərəfindən sosial şəbəkələrdə əlavə olaraq yeni səhifələr fəaliyyətə başlayıb.




Səhmdar Cəmiyyətin "Azerishiq ASC" facebook səhifəsi ilə yanaşı, yeni "Azerishiq.az" facebook səhifəsi, eyni zamanda "Azerishiq.az" instagram səhifələri yaradılıb. Yeni yaradılan "facebook" və "instagram" səhifələrində "Azərişıq" ASC-nin ASAN "xidmət" vasitəsi ilə etdiyi yeniliklər, texniki şərtlərin verilməsi prosesində həyata keçirilən islahatlar, sahibkarlar üçün nəzərdə tutulan güzəşt və xidmətlər, elektrik avadanlıqlarının istismarı zamanı anidən baş verən qəzaların, zədələnmələrin, yanğınların qarşısının alınması və ya elektrik şəbəkələrində ortaya çıxan problemlərin vaxtında aradan qaldırılması üçün zəruri olan addımların atılması üçün tələb olunan xidmətlər özünə yer alacaq.

Bir sözlə, sadə vətəndaşdan tutmuş sahibkarlara qədər elektrik enerji təchiz edilən hər kəs "Azərişıq" ASC-nin sosial şəbəkələrdəki fəaliyyətindən faydalana biləcəklər. "Azərişıq" ASC-nin Perspektiv inkişaf və "ASAN xidmət"lə iş idarəsi tərəfindən yaradılan sosial şəbəkə səhifələrində yaxın vaxtlarda elektron qaydada yeni xidmətlər də göstəriləcək.

**Qədir ASLAN,**
**"Respublika".**

# "AzRe Təkrarsığorta" ASC-nin 2017-ci il üçün maliyyə hesabatı

**"AZRE TƏKRARSIĞORTA" ASC**

**Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat**
**31 dekabr 2017-cü il tarixinə**

(Azərbaycan Manatı ilə)

| | 31 dekabr 2017 | 31 dekabr 2016 |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5 403 839,51 | 12 745 886,95 |
| Banklarda olan depozitlər | 30 421 736,47 | 38 897 951,07 |
| Dövlət qiymətli kağızları | 60 568 651,89 | 46 959 303,45 |
| Uzunmüddətli maliyyə aktivləri | 5 778 051,00 | 6 177 853,82 |
| Mükafatlar və sığorta üzrə digər debitor borcları | 5 689 300,02 | 15 717 762,21 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 10 417 607,74 | 10 876 575,64 |
| Əmlak və avadanlıq | 1 147 512,43 | 1 111 858,84 |
| Qeyri-maddi aktivlər | 1 157 498,96 | 499 223,34 |
| Digər aktivlər | 15 863 376,70 | 7 695 883,13 |
| **Cəmi aktivlər** | 136 447 574,72 | 140 682 298,45 |
| **Öhdəliklər və kapital** | | |
| Sığorta ehtiyatları | 48 860 463,20 | 51 078 843,63 |
| Sığorta fəaliyyəti üzrə kreditor borcları | 967 523,62 | 6 014 926,02 |
| Digər kreditor borcları və ehtiyyatlar | 2 508 345,39 | 2 039 486,81 |
| **Cəmi öhdəliklər** | 52 336 332,21 | 59 133 256,46 |
| Nizamnamə kapitalı | 50 000 000,00 | 50 000 000,00 |
| Bölüşdürülməmiş mənfəət | 26 390 105,12 | 23 942 301,03 |
| Kapital ehtiyatları | 6 031 611,11 | 6 031 611,11 |
| **Əsas müəssisənin səhmdarlarına məxsus kapital** | 82 421 716,23 | 79 973 912,14 |
| Azlıqların payı | 1 689 526,28 | 1 575 129,85 |
| **Cəmi kapital** | 84 111 242,51 | 81 549 041,99 |
| **Cəmi öhdəliklər və kapital** | 136 447 574,72 | 140 682 298,45 |

**"AZRE TƏKRARSIĞORTA" ASC**

**KONSOLİDƏ EDİLMİŞ MƏCMU GƏLİR HESABATI**
**31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2017 tarixində bitən il üzrə | 31 dekabr 2016 tarixində bitən il üzrə |
|---|---|---|
| Ümumi sığorta və təkrarsığorta mükafatları | 70 142 015,86 | 80 538 517,24 |
| Sığorta mükafatlarında təkrarsığortaçıların payı | (8 861 130,69) | (24 491 443,11) |
| **Xalis mükafatlar** | **61 280 885,17** | **56 047 074,13** |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi) | 1 827 166,26 | 9 131 081,86 |
| **Qazanılmış xalis mükafatlar** | **63 108 051,43** | **65 178 155,99** |
| Ümumi ödənilmiş iddialar | (29 600 938,04) | (35 286 548,85) |
| Ödənilmiş iddialarda təkrarsığortanının payı | 836 375,03 | 2 144 099,57 |
| **Xalis iddialar** | **34 343 488,42** | **32 035 706,71** |
| Faiz gəliri | 9 570 026,13 | 7 580 493,31 |
| Satış komissiyaları | (7 238 435,17) | (11 884 205,90) |
| Təkrarsığorta şirkətlərindən əldə olunan komissiya gəliri | 92 159,18 | 1 255 181,65 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis zərər | (918 507,42) | 2 155 428,68 |
| Əməliyyat xərcləri | (7 981 159,56) | (7 795 846,58) |
| Digər gəlirlər | 163 799,94 | 439 806,42 |
| Digər sığorta xərcləri | (1 197 494,40) | (80 331,55) |
| **Vergidən əvvəlki mənfəət** | 26 833 877,12 | 23 706 232,74 |
| Mənfəət vergisi xərci | (4 771 676,60) | (5 385 334,81) |
| **İl üzrə xalis mənfəət** | 22 062 200,52 | 18 320 897,93 |
| **O cümlədən:** | | |
| Əsas müəssisənin səhmdarlarına aid | 21 947 804,09 | 18 090 722,64 |
| Azlıqlara aid | 114 396,43 | 230 175,29 |
| Digər məcmu gəlir | | |
| **İl üzrə məcmu gəlir** | | |

**"AZRE TƏKRARSIĞORTA" ASC**

**Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat**
**31 dekabr 2017-ci il tarixində bitən il üzrə**

(Azərbaycan Manatı ilə)

| | Əsas müəssisənin səhmdarlarına aid: Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Digər kapital ehtiyatları | Cəmi | Azlıqların payı | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2015** | 40 000 000,00 | 30 114 034,23 | 3 583 600,00 | 73 697 634,23 | 1 402 584,05 | 75 100 218,28 |
| **İl üzrə məcmu gəlir:** | | | | | | |
| İl üzrə xalis mənfəət/(zərər) | | 18 090 722,64 | | 18 090 722,64 | 230 175,29 | 18 320 897,93 |
| Digər məcmu gəlir | | (2 512 455,84) | 2 448 011,11 | (64 444,73) | (57 629,49) | (122 074,22) |
| Dividendlər | | (11 750 000,00) | | (11 750 000,00) | | (11 750 000,00) |
| Kapitalın maddələr arasında köçürmələr | 10 000 000,00 | (10 000 000,00) | | - | | - |
| İl ərzində kapitalda dəyişikliklərin cəmi | | | | | | - |
| **31 dekabr 2016** | 50 000 000,00 | 23 942 301,03 | 6 031 611,11 | 79 973 912,14 | 1 575 129,85 | 81 549 041,99 |
| **İl üzrə məcmu gəlir:** | | | | | | |
| İl üzrə xalis mənfəət/(zərər) | | 21 947 804,09 | | 21 947 804,09 | 114 396,43 | 22 062 200,52 |
| Digər məcmu gəlir | | | | - | | - |
| Dividendlər | | (19 500 000,00) | | (19 500 000,00) | | (19 500 000,00) |
| Kapitalın maddələr arasında köçürmələr | | - | | - | | - |
| İl ərzində kapitalda dəyişikliklərin cəmi | - | 2 447 804,09 | - | 2 447 804,09 | 114 396,43 | 2 562 200,52 |
| **31 dekabr 2017** | 50 000 000,00 | 26 390 105,12 | 6 031 611,11 | 82 421 716,23 | 1 689 526,28 | 84 111 242,51 |

## Müstəqil Auditorun Hesabatı

"AzRe Təkrarsığorta" Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Bakıxanov küçəsi 6, "Bridge Plaza".

**Rəy**

Biz "AzRe Təkrarsığorta" Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətinin konsolidə olunmuş hesabatından, konsolidə olunmuş məcmu gəlirlər hesabatından, konsolidə olunmuş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətinə dair konsolidə olunmuş hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Şirkətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"FChain Audit" MM-nin
Direktoru: Valid Hüseynov
Auditoru: Azad Sadıxov
20 iyun 2018-ci il
Azərbaycan Respublikası, Bakı, Mətbuat prospekti, 35c.

**TƏKRAR**

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti açıq tender elan edir

Tender 8 (səkkiz) lot üzrə keçirilir:

1-ci lot - mebel avadanlığının satınalınması;
2-ci lot - digər maşın və avadanlığın satınalınması;
3-cü lot - dəftərxana ləvazimatının satınalınması;
4-cü lot - əşya-geyim dəstinin tikilişi;
5-ci lot - əşya-geyim mallarının satınalınması;
6-cı lot - hərbi qulluqçular üçün köynəklərin satınalınması;
7-ci lot - hərbi qulluqçular üçün ayaqqabıların və uzunboğaz çəkmələrin satınalınması;
8-ci lot - poqonlar və fərqləndirmə nişanlarının satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, malgöndərənin (podratçının) aidiyyəti işlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba iştirak haqqı ödəməklə Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30 (əlaqələndirici şəxs: C.Valehov; telefon: (+99412) 493-82-66) ünvanından ala bilərlər:

Tenderdə iştirak haqqı:
1-ci lot üzrə - 80 AZN
2-ci lot üzrə - 150 AZN
3-cü lot üzrə - 150 AZN
4-cü lot üzrə - 110 AZN
5-ci lot üzrə - 80 AZN
6-cı lot üzrə - 100 AZN
7-ci lot üzrə - 70 AZN
8-ci lot üzrə - 50 AZN

Adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T CTREAZ22
Adı: Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti
VÖEN: 1701344461
Hesab: AZ91CTRE00000000000004828501
Büdcə gəlirinin təsnifatı kodu: 142340
Büdcə səviyyəsinin kodu fond: 7

Malgödərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü, yəni azı 60 (altmış) bank günü olmalıdır);
5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;
- Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 20 iyul 2018-ci il saat 15:00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 30 iyul 2018-ci il, saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 31 iyul 2018-ci il tarixdə saat 11:00-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində açılacaqdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tender Komissiyası.

# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜ



Ali Baş Komandanı və Azərbaycan ordusunun bütün şəxsi heyətini səmimi qəlbdən təbrik edir, şərəfli vəzifələrində yeni uğurlar arzulayırıq.

TEKFEN
TEKFEN İNŞAAT


## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Sabirabad Mərkəzi Rayon Xəstəxanası 2018-ci il ərzində aşağıda göstərilən malların (iş və xidmətlərin) satınalınması məqsədi ilə əlaqədar

## KOTİROVKA SORĞUSU ELAN EDİR

1. Dəftərxana və təsərrüfat xərcləri
2. Mətbəə xərcləri
3. İdarənin digər xərcləri
4. Cari təmir
5. Digər nəqliyyat xidmətləri
6. Kommunal və Komnukasiya xidmətləri ilə bağlı digər xərclər
7. Yumşaq inventar
8. Obyektlərin əsaslı təmiri

Kotirovka sorğusunda iştirak etmək istəyənlər sənədləri 09 iyul 2018-ci il tarxiə qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 10 iyul 2018-ci il tarixdə saat 11:00-da açılacaqdır.

**Ünvan:** *Sabirabad rayonu, Qalaqayın kəndi*
**Əlaqə telefonu:** *(021) 23-5-87-16*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 19 aprel və 29 aprel 2018-ci il tarixli nömrələrində dərc olunmuş elana və 29 may və 14 iyun 2018-ci il bildirişlərinə əsasən Bakı Xoreoqrafiya Akademiyasının 1 Lot-dan ibarət olan əsaslı təmir işlərinin görülməsi üçün açıq tender zərflərin açılış vaxtının müddəti növbəti dəfə uzadılaraq, 06 iyul 2018-ci il tarixdə saat 15:00-da açılacaqdır.

**Tender Komissiyası.**

Vəliyev Şəmistan Paşa oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən N-5930 19 aprel 1990-cı il tarxili 3/78 qərara əsasən verilmiş order itdiyi üçün etibarsız sayılır.

DT və XK-nın Quba rayon şöbəsi tərəfindən Gümür Dəhnəz kənd sakini Əzizov İlqar Hüseynağa oğluna verilmiş JN-0053 (kod-30302078) torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Məmmədov İbad Tarıverdi oğluna verilmiş A N-468855 saylı Əfqanıstan Müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abşeron rayonu, Xırdalan şəhərində DTXK tərəfindən Məmmədov Samir Pərviz oğlunun adına verilmiş JN 157 saylı (kod: 30801006; 0,07 ha) torpağa mülkiyyət hüququna dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 27 mart 1998-ci il tarixli 5 nömrəli qərarı ilə Bala Şürük kənd sakini Tarverdiyev Əmir Xeyrulla oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN0014; KOD 80206028) itdiyi üçün etibarsız sayılır.

Lerik rayon aqrar islahat komissiyasının 28 iyul 1998-ci il tarixli 42 nömrəli qərarı ilə Bürsülüm kənd sakini Yusubov Şakir Mirkərim oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN0021; KOD 80303005) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının qərarı ilə Şahağac kənd sakini Abbasova Kübra Bayram qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 614 A; KOD 80112018) itdiyi üçün etibarsız sayılır.

DTXK-sı tərəfindən Saray qəsəbəsində İsmayılova Gülüş Vahid qızı, İsmayılova Fərqanə Vahid qızı və İsmayılov Nicat Vahid oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair şəhadətnamə (JN 900 A, KOD 30800086, 0,10 ha) itdiyi üçün etibarsız sayılır.

DƏDRX-nin 5 saylı Xaçmaz Ərazi İdarəsi tərəfindən Səlimov Qabil Əkbər oğlunun adına verilmiş (Rey-304013007762) çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

İbrahimova Mahrux Niyaz qızının adına məxsus Bakı şəhəri, Nizami rayonu, Kamil Balakişiyev küç. ev 27, mən. 38 ünvanına 18.08.2006-cı il tarixində verilmiş çıxarış qeydiyyat N 110629007 itdiyi üçün etibarsız sayılır.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsində "cihaz-avadanlıqlar"ın satınalması üzrə 30 may 2018-ci il tarixində keçirilmiş təkliflər sorğusu prosedurlarında iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında tender komissiyasının 30 may 2018-ci il tarixli yekun protokollarına əsasən "Kota Group" MMC şirkəti qalib elan edilmiş və həmin təşkilatlarla müvafiq olaraq 21 iyun 2018-ci il tarixində satınalma müqaviləsi bağlanmışdır.

## BİLDİRİŞ

**Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən "2018-ci il ərzində Komitənin aparatı üçün tələb olunan inventarların satınalınması" üzrə 31 may 2018-ci il tarixində kotirovkalar sorğusu metodu ilə keçirilmiş satınalma prosedurunun nəticəsinə əsasən "TEORİA ART LİNE" MMC qalib müəyyən edilmiş və onunla satınalma müqaviləsi imzalanmışdır.**

**Tender Komissiyası.**

## BİLDİRİŞ

**"AZƏRİŞIQ" ASC tərəfindən 07 İyun 2018-ci il tarixində Kompüter avadanlıqlarının satınalınması üzrə kotirovka sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində tender komissiyasının qərarına əsasən "Caspian Sell" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 21.06.2018-ci il tarixində ƏDV daxil 49 620,37 (qırx doqquz min altı yüz iyirmi manat, 37 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.**

**"AZƏRİŞIQ" ASC**
**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Dizel generatorları və elektirik mal-materiallarının alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **500 (beş yüz) manat (ƏDV xaric)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*VÖEN: 9900044741, hesab: AZ14AZPO91015461200420100157,*
*bank: "Azərpoçt" MMC PF 1, kodu: 691011, bankın VÖENi: 9900037711,*
*m/h: AZ76NABZ01350100000000094944, S.W.İ.F.T: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **01.08.2018-ci il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2% Bank Zəmanəti istisna olmaqla).

Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender təklifini və bank təminatını **09.08.2018-ci il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklif zərfləri **10.08.2018-ci il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Qafarov Elxan Misir oğlu, tel.: (+994 12) 493-84-99.**

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Sabirabad Rayon Mərkəzi Xəstəxanası 2018-ci il üçün tələb olunan malların (iş və xidmətlərin) satınalınması məqsədilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir:**
**Lot-1.** İnventaların satınalıması
**Lot-2.** Avadanlıqların satınalınması
**Lot-3.** Digər maşın və avadanlıqların satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər bir lot üzrə 40 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Sabirabad rayonu, Qalaqayın kəndi (Sabirabad Rayon Mərkəzi Xəstəxanası) ünvanda əlaqələndirici şəxs: Ü.Əliyev, telefon: (021) 23-5-87-16 ala bilərlər.

İştirakçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Sabirabad YXO*
*Hesab: AZ46AİİB32051019444400201144*
*VÖEN: 6800086231*
*Bank: "Kapital Bank" Sabirabad rayon filialı*
*Kodu: 200446*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK — AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);*
*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*— iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər (notariusdan təsdiq edilmiş surəti);*
*—İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 07 avqust 2018-ci il saat 15:00-a qədər, bir nüsxədə tender təklifi və bank zəmanətini isə bağlanmış və möhürlənmiş ikiqat zərfdə iki nüsxədə (əsli və surəti) 16 avqust 2018-cı il saat 15:00-a qədər, Sabirabad Mərkəzi Rayon Xəstəxanası (ünvan: Sabirabad rayonu, Qalaqayın kəndi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 avqust 2018-ci il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

**Əlaqə telefonu - (021) 23- 5-87-16**
**Ünvan: Sabirabad rayonu, Qalaqayın kəndi.**

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru, professor Teymur Əhmədov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova, qardaşı**
**YAVƏR CAMALOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**"Respublika" qəzetinin bölgə müxbiri Tofiq Hüseyn Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova, qardaşı**
**YAVƏR CAMALOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Şirvan şəhərindən Yasər Əsgərov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova qardaşı,**
**YAVƏR CAMALOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Azərbaycan Dövlət Aqrar Universitetinin professorları Kamil Fətəliyev, Qabil Məmmədov və dosent Vüqar Ağayev Əlikram Camalova, qardaşı**
**YAVƏR CAMALOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru Qəzənfər Əhmədov və kollektivi müdafiə sənayesi naziri**
**YAVƏR CAMALOVUN**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Nəriman CAVADOV**

● **Çapa imzalanmışdır**
**25.06.2018**